## Azərbaycan 100 erməni hərbçinin cəsədini qarşı tərəfə verməyə hazırdır

Beynəlxalq Qızıl Xaç Komitəsi də məlumatlandırılıb



Azərbaycan beynəlxalq humanitar hüquqa və humanizm dəyərlərinə sadiqliyini nümayiş etdirərək Ermənistanı atəşkəsə çağırır və cari ilin 12-13 sentyabr tarixlərində ölkəmizin ərazi bütövlüyünə qarşı təxribatın qarşısının alınması nəticəsində həlak olmuş 100-ə qədər Ermənistan hərbçisinin cəsədlərini birtərəfli qaydada qarşı tərəfə təhvil verməyə hazır olduğunu bildirir.

Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası məlumat yayıb.

Bildirilib ki, bununla əlaqədar Beynəlxalq Qızıl Xaç Komitəsi də məlumatlandırılıb.

## Ankarada əkiz qüllələr binası Azərbaycan bayrağına bürünüb



**Azərbaycan tək deyil. Bu sözləri Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı "Twitter" hesabında yazıb.**

"An etibarı ilə Ankara. Azərbaycan tək deyil Türkiyə hər zaman Azərbaycanın yanındadır. Biz tək millət iki dövlətik", - deyə paylaşımda bildirilib.



## "TikTok"un fəaliyyəti müvəqqəti dayandırıldı

Ekspertlər DTX-nin qərarını indiki şəraitdə düzgün və lazımlı addım kimi dəyərləndirib

**Dövlət Təhlükəsizliyi Xidmətinin saytının yaydığı məlumata görə, "TikTok" sosial şəbəkəsinin ölkə ərazisində yayımlanması müvəqqəti dayandırılıb. Məlumatda qeyd olunub:**

"Məlum olduğu kimi, cari ilin 12-13 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində törətdikləri genişmiqyaslı təxribatlara qarşı silahlı qüvvələrimiz tərəfindən layiqli cavab tədbirləri görülüb.

(səh.3)


№ 165 (5687), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 sentyabr 2022-ci il (cümə axşamı)




## Ermənistanın təxribatları qəbuledilməzdir

Ərdoğan: "Azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu bütün dünya bilməlidir"

**Azərbaycan-Ermənistan sərhədində baş vermiş toqquşmalar zamanı şəhid olan qardaşlarımıza Allahdan rəhmət diləyirəm, yaralılara şəfa arzulayıram. Azərbaycan xalqına başsağlığı verirəm.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

O qeyd edib ki, Ermənistanın təxribatları qəbuledilməzdir.

"Hər zaman olduğu kimi, azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu bütün dünya bilməlidir", - deyə Ərdoğan vurğulayıb.

## Sentyabrın sonu...

Azərbaycan və Ermənistan XİN başçıları Brüsseldə görüşəcək





**Azərbaycan və Ermənistan xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan sülh müqaviləsini müzakirə etmək üçün sentyabrın sonuna qədər Brüsseldə görüşəcək.**

APA "Sputnik Armenia"ya istinadən xəbər verir ki, bu barədə Ermənistan xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxışı zamanı deyib. "Demarkasiya prosesinə start verilib, paralel olaraq sülh müqaviləsinin müzakirə olunduğu görüşlər keçirilib", - o deyib.

# 7 saatlıq əməliyyat

Ermənistanın uzun müddətdir qurduğu planlar alt-üst oldu



**Sentyabrın 12-də Azərbaycan-Ermənistan sərhədinin Laçın, Kəlbəcər və Zəngilan rayonları istiqamətində başlanan gərginlik Ermənistanın revanşist siyasətinin, mövcud vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdinin nəticəsidir.** Uzun müddətdir Ermənistan beynəlxalq aləmdə Azərbaycana qarşı kampaniya aparırdı. İrəvan hökuməti Azərbaycanla aparılan sülh danışıqlarını, kommunikasiyaların açılmasını, ümumilikdə regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj edirdi.

Son günlərdə də Ermənistan hakimiyyətinin 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəalarının icrasından boyun qaçırdığı müşahidə olunmaqdadır. Həm Rusiya, həm də Qərb ölkələrindəki müəyyən dairələrin təhriki, o cümlədən erməni lobbisinin dəstəyi ilə Ermənistanda revanşist ab-hava qızışdırılır.

(səh.3)

# Vəziyyət gərgindir

Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi böyük itkilər verərək geri çəkilməyə məcbur edilib



**"Ermənistan Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutub, vəziyyət gərgin olaraq qalır".**

Bunu Ermənistanla sərhədindəki son vəziyyətlə bağlı keçirilən brifinqdə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov deyib. Nazirlik rəsmisi bildirib ki, Ermənistanın niyyəti bəllidir:

"Ermənistan terror-təxribat törətməkdə davam edib, Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə məruz qoyub.

(səh.4)



## Paşinyanın çıxışından sonra İrəvanda etiraz aksiyaları keçirilir

**Ermənistan parlamenti və hökumət binasının qarşısında etiraz aksiyaları keçirilir.**

APA "Sputnik Armenia" saytına istinadən xəbər verir ki, buna səbəb Ermənistanın baş naziri Nikol Paşinyanın Milli Assambleyada verdiyi açıqlamalar olub. Nikol Paşinyan Ermənistan tərəfinin hər hansı sənəd imzalamağa hazırlaşması ilə bağlı dediklərini təkzib edib. O bu barədə rəsmi "Facebook" səhifəsində yazıb. Parlament binasının yaxınlığında keçirilən aksiya zamanı vətəndaşlar Baqramyan prospekti bağlayıb, nəqliyyatın hərəkəti dayandırılıb. İrəvanda etirazçılar Ermənistan parlamentinin qapısını sındırmağa cəhd ediblər. Öz növbəsində, polis fəallardan yolu açmağı tələb edir.

## 9 nəfər vəfat edib

Daha 371 nəfər koronavirusa yoluxub



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 371 yeni yoluxma faktı qeydə alınıb, 508 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən xəbərə görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 818 634 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 806 701 nəfər müalicə olunaraq sağalıb, 9 873 nəfər vəfat edib, aktiv xəstə sayı 2 060 nəfərdir.

Ölkədə son sutka ərzində 3 664, hazırkı dövrədək isə 7 203 417 test aparılıb.

## Rayonlardan Bakıya sərnişin daşıyan taksilərdə qiymət artıb



**Azərbaycanda yeni tədris ili başlayır. Bu səbəbdən də paytaxtda təhsil alan tələbələr və şagirdlər regionlardan paytaxta qayıdırlar. Paytaxta taksi ilə qayıdan bəzi vətəndaşlar gedişhaqqının qalxmasından gileylənirlər.**

Məsələ ilə bağlı Trend-ə açıqlama verən nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bildirib ki, taksilərdə qiymətlərə nəzarət olunmur.

"Taksilərdə qiymətlərin süni şəkildə qaldırılması ilk dəfə deyil. Belə ki, hazırda rayonlardan paytaxta qayıdanların sayında artım var. Bu da tezliklə yeni tədris ilinin başlayacağı ilə bağlıdır. Bundan istifadə edən bəzi taksi sürücüləri qiymətləri qaldırırlar. Onlara heç bir qurum nəzarət etmir", - o deyib.

*Qeyd edək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına əsasən də taksilərdə vahid tarif tətbiq olunmur.*



## İrəvanın hədəfləri bəllidir

Baş nazir Qərbə inteqrasiya üçün Ermənistanı rus ordusundan qurtarmaq istəyir

(səh.2)

## Paşinyan nəyə arxalanmışdısa, xəyalları suya düşdü

Azərbaycan hərbi təxribatlara tutarlı və miqyasca daha geniş şəkildə cavab verərək regional təhlükəsizlik arxitekturasına təhdidləri aradan qaldırır

(səh.3)



# Vəziyyət gərgindir

## Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi böyük itkilər verərək geri çəkilməyə məcbur edilib




**"Ermənistan Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutub, vəziyyət gərgin olaraq qalır". Bunu Ermənistanla sərhədindəki son vəziyyətlə bağlı keçirilən brifinqdə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov deyib. Nazirlik rəsmisi bildirib ki, Ermənistanın niyyəti bəllidir:**

"Ermənistan terror-təxribat törətməkdə davam edib, Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə məruz qoyub. O qeyd edib ki, Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun Kəlbəcər Laçın və Daşkəsəndə olan bölmələrini atəşə tutublar. A.Eyvazovun sözlərinə görə, Kəlbəcər rayonunun Zəylik, Yellicə və Yuxarı Ayrım yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Yuxarı Şorca, Aşağı Şorca və Zərkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən D-30 və D-20 toplarından istifadə olunmaqla atəşə tutulur.

**Anar Eyvazov qeyd edib ki, ordumuz tərəfindən cavab tədbirləri görülür:** "Təəssüf ki, bizim də itkilərimiz var və bu barədə əlavə məlumat veriləcək. Hazırda vəziyyət gərgin olaraq qalır".

**"Şəhidlərimizin qanı yerdə qalmayıb"**

*A.Eyvazov vurğulayıb ki, sentyabrın 12-si tarixində gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bir qrup kəşfiyyat diversiya qrupu dövlət sərhədinin Kəlbəcər, Laçın və Daşkəsən istiqamətində ərazi relyefi və dərə boşluqlarından istifadə edərək bölmələrimizin arxasına sızaraq ətrafı minalamağa cəhd göstərib:* "Bu, ordumuzun bölmələri tərəfindən aşkar edilib. Bölmələrimiz tərəfindən dərhal zəruri tədbirlər həyata keçirilib və qarşıdurma baş verib. Sentyabrın 13-ü səhərə qədər davam edən döyüşlərdə Silahlı Qüvvələrimizin bir qrup hərbi qulluqçusu ölkəmizin ərazi bütövlüyü uğrunda böyük şücaət göstərərək şəhid olub".
Anar Eyvazov qeyd edib ki, şəhidlərimizin qanı yerdə qalmayıb: "Adekvat cavab tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurularaq təxribata cəlb olunmuş Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi böyük itkilər verərək geri çəkilməyə məcbur edilib".

**"Azərbaycan Ordusunun bölmələri mülki infrastrukturu hədəfə almır"**

Nazirlik rəsmisi bir daha Azərbaycan Ordusunun mülki infrastrukturu hədəfə almadığını bildirib: "Ermənistan mətbuatında Azərbaycan Ordusunun bölmələrinin guya yaşayış evlərini atəşə tutması barədə yayılan məlumatın heç bir real əsası yoxdur. Bu qarşı tərəfin növbəti təxribat xarakterli dezinformasiyasıdır. Ermənistan tərəfinin Azərbaycan Ordusunun bölmələrinin guya Gegarkunik vilayətində yerləşən Rusiya Silahlı Qüvvələrinin hərbi obyektinə və avtomobil texnikasına atəş açması ilə bağlı yaydığı məlumat tamamilə yalandır, həqiqəti əks etdirmir. Bir daha bildiririk ki, Azərbaycan Ordusunun bölmələri mülki infrastrukturu hədəfə almır".

**"Sosial şəbəkələrdə ordunun fəaliyyətinə kölgə salan məlumatlar yayılır"**

**Anar Eyvazov vurğulayıb ki, sosial şəbəkələrdə Azərbaycan Ordusunun fəaliyyətinə kölgə salan məlumatlar, video və şəkillər yayılır:** "Sosial şəbəkələrdə yayılan məlumatlar ictimaiyyət arasında çaşqınlıq yaratmasın. İctimaiyyət bu məlumatlara inanmasın. İctimaiyyəti diqqətli olmağa, yalnız rəsmi məlumatlara istinad etməyə çağırırıq".

**İsmayıl**



# Bakı Brüsseldə aparılan sülh gündəliyini dəstəkləyir

## Prezident İlham Əliyev genişmiqyaslı təxribatın məhz Ermənistan tərəfindən törədildiyini qeyd edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

Toivo Klaar sentyabrın 12-dən 13-nə keçən gecə dövlət sərhədində baş vermiş gərginliklə bağlı narahatlığını ifadə etdi, bu xüsusda Avropa İttifaqı rəhbərliyinin Ermənistanın baş naziri və Azərbaycan Prezidenti ilə telefonla danışdığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı bu genişmiqyaslı təxribatın məhz Ermənistan tərəfindən törədildiyini qeyd edərək, buna görə bütün məsuliyyətin bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Brüsseldə aparılmış müzakirələrin davamı olaraq sülh gündəliyini dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın vəziyyətin sabitləşdirilməsi və gərginliyin aradan qaldırılması üçün zəruri addımlar atmasına baxmayaraq, əldə olunmuş atəşkəsin Ermənistan tərəfindən pozulmasının davam etdiyini bildirdi.

# Azərbaycan XİN Ermənistana çağırış etdi

## "Dağıdıcı fəaliyyətdən çəkinin, humanitar atəşkəsə riayət edin"



**Belə bir vəziyyətdə Ermənistanın təxribatçı əməllərindən əl çəkməməsi və Azərbaycan mövqelərini artilleriya vasitələrindən atəşə tutması bu ölkənin bölgədəki vəziyyətin gərginləşdirilməsində maraqlı olduğunu göstərir.**

Bu barədə Azərbaycan XİN-in məlumatında bildirilib.

"Ermənistanı dağıdıcı fəaliyyətindən çəkinməyə, humanitar atəşkəsə riayət etməyə çağırırıq. Bölgədə sülh yalnız beynəlxalq hüquqa ciddi riayət olunması əsasında təmin oluna bilər", - qeyd olunub.



# Erməni ordusuna ağır zərbə vurulub

## Son əməliyyatın nəticələri Bakının diplomatiyada da əlini gücləndirə bilər

**"Yeddi saatlıq əməliyyatın nəticələrini hərbi və siyasi olaraq qiymətləndirə bilərik". Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspertin qənaətincə, Ermənistanın sərhəd boyunca təhdid yarada biləcək hərbi infastrukturu sıradan çıxdı:**

"Ermənistanın hərbi hissələri və hava hücumundan müdafiə sistemləri məhv edildi. Erməni ordusuna ağır zərbə vuruldu. Rəsmi məlumatda yüzdən çox itki deyilsə də, erməni mənbələrin məlumatı, eləcə də endirilən zərbələrin görüntüləri bunun qat-qat çox olduğunu deməyə əsas verir. Məlumatlara görə, 200-ə yaxın canlı qüvvə itkisi olub, postlar darmadağın edilib. Dəyəri yüzmilyonlarla olan iki ədəd S-300 raketi və artilleriya qurğuları sıradan çıxıb. Həmçinin, strateji yüksəkliklər nəzarətə götürülüb. Rəsmi açıqlamada Ermənistanın nəqliyyat-kommunikasiya sisteminə nəzarət imkanı əldə etdiyimiz qeyd olunur. Qeyri-rəsmi məlumatlara görə, 100 kvadrat kilometr ərazi ordumuzun nəzarətinə keçib. İrəvan-Gorus yolu ordumuzun bir atış məsafəsi qədər nəzarətindədir. Strateji yüksəkliklərə nəzarət Ermənistanın sərhəddə Azərbaycana qarşı təhdid potensialını da sıradan çıxarır".

*A.Nərimanlıya görə, hərbi gedişlə masadakı gündəliyi dəyişməyə çalışan Ermənistan istəyinə nail ola bilmədi:* "Bu, İrəvanın tələblərlə razılaşmaqdan başqa yolunun olmadığını yenidən gündəmə gətirir. Digər yandan Bakı həm Moskva, həm Brüssel masasındakı razılaşmların icrası tələbini sərtləşdirəcək. Son əməliyyatın nəticələri Bakının diplomatiyada da əlini gücləndirə bilər".

**İsmayıl**

# KTMT-nin iclasında baş verən detallar gizlədilir

## Qazaxıstan, Qırğızıstan və Tacikistan Azərbaycana görə digər üzvlərlə mübahisə ediblər



**Qazaxıstan sülhməramlılarının Azərbaycan-Ermənistan sərhədinə göndərilməsi məsələsi gündəlikdə yoxdur. Bu barədə Qazaxıstan Xarici işlər naziri Muxtar Tleuberdi açıqlama verib. Onun sözlərinə görə, ilk addım Azərbaycanla Ermənistan arasında delimitasiya və demarkasiya komissiyasının işinin bərpa edilməsidir:**

"Biz quru sərhədlərimizi və dəniz sərhədlərimizi tam demarkasiya etdiyimiz üçün öz təcrübəmizi tərəflərlə bölüşə bilərik. Demarkasiya Rusiya istisna olmaqla, bütün qonşularımızla yekunlaşıb. Rusiya ilə demarkasiya yəqin ki, daha 2-3 il vaxt aparacaq".

**Politoloq Zaur Məmmədov deyib ki, Qazaxıstan, Qırğızıstan və Tacikistan KTMT-nin iclasında Azərbaycana görə digər üzvlərlə mübahisə ediblər. Analitik bildirib ki, iclasla bağlı bəzi məqamlar gizlədilib:** "İclas haqqında ilkin mətn rəsmi saytdan bir neçə dəqiqə sonra silinərək yenisi ilə əvəz olunub. Görüşün yekunlarına dair ilkin versiyada aşağıdakılar qeyd olunurdu: - "KTMT-nin Qərargah və Katibliyinin iştirakı ilə dünən baş tutan iclasda Azərbaycana və Türkiyəyə qarşı sərt fikirlər səsləndirilib. Rusiyanın KTMT-dəki daimi təmsilçisi Mikael Aqasandyan Azərbaycan və Türkiyənin guya NATO ilə birlikdə vəziyyəti gərginləşdirməsinə icazə verməyəcəklərini, bölgəyə hərbi kontingentin göndərilməsinin lazımlığını qeyd edib. Belarus nümayəndəsi Aqasandyanın fikri ilə razılaşıb". Lakin Qazaxıstan, Qırğızıstan və Tacikistan etiraz edib, yuxarıda deyilənləri birtərəfli fikir adlandırıblar. Bu cür qərara dəstək verməyəcəklərini bildiriblər. Bundan sonra Mərkəzi Asiya dövlətlərinin fikri ortaq qərar kimi qəbul edilib, abzaslar silinib və iclasda neytral mövqenin qəbul edildiyi bəyan olunub. Aydın məsələdir ki, Mikael Aqasandyan erməni etnik mənsubiyyətinin maraqlarından çıxış edərək subyektiv fikir söyləyib. Lakin öz məqsədinə çatmayıb. Çünki Moskva tərəfindən də balanslı bəyanat verilib. Hər halda bu hadisələr göstərdi ki, Ermənistanın üzvü olduğu təşkilatlarda belə heç bir çəkisi yoxdur".

**İsmayıl Qocayev**



# İrəvanın hədəfləri bəllidir

## Baş nazir Qərbə inteqrasiya üçün Ermənistanı rus ordusundan qurtarmaq istəyir

**13 sentyabrda KTMT-nin iclasında Nikol Paşinyanın Azərbaycan-Ermənistan sərhədində baş verənlərlə bağlı məlumatı dinlənilib. Videokonfrans formatında olan qapalı tədbir Ermənistanın təklifi ilə keçirilib.**

14 sentyabrda isə KTMT-nin Kollektiv Təhlükəsizlik Şurası vəziyyəti qiymətləndirmək və dövlət başçılarına hesabat hazırlamaq üçün baş katib Stanislav Zasın başçılığı ilə təşkilatın missiyasını Ermənistana göndərmək barədə razılığa gəlib.

**Bu barədə "Şərq"ə danışan analitik Turab Rzayev bildirib ki, hazırda Ermənistan ciddi-cəhdlə KTMT-ni münaqişəyə qatmağa çalışır:** "Birinci dəfə deyil ki, bu hal baş verir. Bundan öncə də biz oxşar əməllərin şahidi olmuşuq. Ermənistan əksər hallarda Rusiyanı və KTMT-ni münaqişəyə qatmaq niyyətində olsa da, alınmayıb. İndi o, yenidən buna cəhd edir. Aydın məsələdir ki, bu, bizim üçün qəbuledilməzdir. Çünki Azərbaycan-Ermənistan münaqişəsi lokal xarakterli bir konfliktdir. Bizim ərazi bütövlüyümüz uğrunda gedən mübarizədir. Burda Ermənistanın ərazi bütövlüyü ilə bağlı heç bir müddəa olmadığına görə KTMT-nin hər hansı şəkildə məsələyə müdaxilə etməsi yolverilməzdir. Əlbəttə ki, KTMT daxilində Azərbaycana simpatiyası olan Qazaxıstan, Qırğızıstan kimi qardaş türk ölkələri var. Onlar KTMT-nin hansısa qoşun birləşməsinin ərazimizdə yerləşdirilməsinə icazə verməyəcəklər. Belarusdan daha oxşar mövqeni gözləmək olar. Rusiyanın özünün də belə bir hədəfi olmadığı bəlli olur. Burda Ermənistanın bir hədəfi KTMT-dən hərbi yardım almaqdırsa, digər hədəfi Rusiya üzərində təzyiq qurmaqdır. Ermənistan hakimiyyəti öz cəmiyyətinə göstərməyə çalışır ki, rus ordusu Qarabağ müharibəsində də, indi də bizi yalnız buraxdı. Biz KTMT-yə dəfələrlə müraciət etsək də yardım etmədilər. O zaman rus əsgərləri Ermənistandan çıxmalıdır. Sirr deyil ki, Paşinyanın ilk hədəflərindən biri də Qərbə inteqrasiya üçün Ermənistanı rus ordusundan qurtarmaqdır. İndi KTMT-yə müraciət edən Nikol həm də özünün bu hədəfinə doğru addımlayır".

**Günəş Mərd**

# Ermənistana xəbərdarlıq edən ilk ölkə yenə Türkiyədir

## Heç kimin şübhəsi olmasın, qardaş ölkə həmişə Azərbaycanın yanındadır



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya Prezidenti Vladimir Putinlə Ermənistan-Azərbaycan sərhədində baş verən qarşıdurmaları Səmərqənddə müzakirə edəcək. Türkiyə mediasına görə, Rusiya və Türkiyənin bu müharibənin sona çatdırılmasında oynadığı rol və bunun ardınca birgə fəaliyyəti aşkar və zəruridir. Türkiyənin iki ölkə arasındakı problemin aradan qaldırılması məqsədi ilə kontaktlara başladığı deyilir:**

"Bu, daha da böyümədən başa çatmalıdır. Türkiyə hər mənada Azərbaycanın yanında olacaq". Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğanla Vladimir Putin arasında görüş Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində cümə günü Özbəkistanda keçiriləcək. Məlumat üçün bildirək ki, Ermənistan silahlılarının sentyabrın 12-13-də Azərbaycanla sərhəddə törətdiyi təxribatlara ilk və sərt formada reaksiya bildirən məhz Türkiyə rəsmiləri olub.

**Politoloq Əhəd Məmmədli "Şərq"ə bildirib ki, erməni təxribatlarını geniş işıqlandıran ilk media qurumları, televiziyalar qardaş Türkiyə KİV-ləri idi. Ekspertin fikrincə, Türkiyə rəhbərliyi də, türk xalqı da hər şəraitdə daim Azərbaycanın yanında olublar və bunu əyani sübut ediblər:** "Qardaş ölkə bu dəfə də prosesə operativ qoşuldu. Türkiyənin XİN başçısı, o cümlədən digər rəsmiləri Ermənistana sərt xəbərdarlıq etdilər, Azərbaycanın tək olmadığını, ölkəmizin yanında olduqlarını xatırlatdılar. Sosial şəbəkələrdə Ağdamda fəaliyyət göstərən Rusiya-Türkiyə Monitorinq Mərkəzinin fəaliyyəti ilə bağlı birmənalı olmayan fikirlər səsləndirilir. Nəzərə alaq ki, Ermənistan-Azərbaycan savaşı sərhəddə, Zəngəzur bölgəsində gedir. Ona görə də Ağdamdakı Mərkəz bu məsələyə müdaxilə etmək iqtidarında deyil. Amma Türkiyə Cənubi Qaqfazda və Azərbaycanın yanındadır. Heç kimin bundan şübhəsi olmasın".

**İsmayıl Qocayev**

# 7 saatlıq əməliyyat

## Ermənistanın uzun müddətdir qurduğu planlar alt-üst oldu



İsmayıl Qocayev

**Sentyabrın 12-də Azərbaycan-Ermənistan sərhədinin Laçın, Kəlbəcər və Zəngilan rayonları istiqamətində başlanan gərginlik Ermənistanın revanşist siyasətinin, mövcud vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdinin nəticəsidir. Uzun müddətdir Ermənistan beynəlxalq aləmdə Azərbaycana qarşı kampaniya aparırdı. İrəvan hökuməti Azərbaycanla aparılan sülh danışıqlarını, kommunikasiyaların açılmasını, ümumilikdə regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj edirdi.**

Son günlərdə də Ermənistan hakimiyyətinin 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəalarının icrasından boyun qaçırdığı müşahidə olunmaqdadır. Həm Rusiya, həm də Qərb ölkələrindəki müəyyən dairələrin təhriki, o cümlədən erməni lobbisinin dəstəyi ilə Ermənistanda revanşist ab-hava qızışdırılır. ”Torpaqların qaytarılması”, ”Qarabağın müstəqilliyinin təmin edilməsi” və s. bu kimi iddialar süni şəkildə stimullaşdırılır.

Ermənistan hakimiyyəti bir müddətdir ordunu bərpa etmək istiqamətində iş aparırdı. Rusiya, ABŞ, Avropa ölkələrindən silah alınması və ordunun təchizat məsələlərinin həlli istiqamətində iş gedirdi. Paralel olaraq Qarabağa hərbçilər və silah göndərilirdi. Orada yeni müqavimət nöqtəsi yaradılmasına cəhdlər olunurdu. Digər tərəfdən, Ermənistan Azərbaycanla sərhəddə yeni hərbi obyektlər yaradır. Kəlbəcər və Laçın istiqamətində gələcək hücum üçün plasdarm formalaşdırılırdı. Ermənistanın Baş naziri Nikol Paşinyan ötən gün Rusiyanın Vladivostok şəhərində keçirilmiş forumda çıxışı zamanı faktiki olaraq yeni hərbi qarşıdurma iddiası ilə çıxış etmişdi. Məhz bu açıqlama sentyabrın 12-də başlanan gərginliyin siyasi anonsu oldu.

Bütün bunlar onu göstərir ki, Ermənistan uzun müddətdir revanşa hazırlaşır və bunun üçün həm siyasi, həm hərbi, həm də informasiya zəmini yaradır. Xüsusən, Laçının təhvil verilməsi Ermənistan hakimiyyəti üçün növbəti ağır zərbə oldu. İrəvan hökuməti daxil təzyiqləri neytrallaşdırmaq, ictimai rəyi dəyişmək üçün növbəti hərbi-siyasi avantüraya başladı. Azərbaycan dəfələrlə ən müxtəlif səviyyələrdə Ermənistanın revanşist siyasətini ifşa edib. Həyata keçirilən hazırlıqların hansı məqsədə xidmət etdiyini faktlar əsasında göstərib. Ermənistan hakimiyyətini bu cəhdlərin onun özü üçün ağır nəticələrə gətirib çıxaracağını xəbərdar edib. Lakin Ermənistan xəbərdarlıqlardan dərs çıxarmayıb.

Faktiki olaraq sentyabrın 12-13-də baş verənlər 2020-ci il iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədində Tovuz rayonu istiqamətində Ermənistanın növbəti təxribatı nəticəsində baş verən qarşıdurma ilə analogiya təşkil edir. Tovuz döyüşləri zamanı olduğu kimi Azərbaycan növbəti dəfə Ermənistanın hərbi-siyasi təxribatına məruz qalaraq cavab vermək və öz təhlükəsizliyinin təmin olunması üçün adekvat addımlar atmaq məcburiyyətində qaldı.

Ermənistanın növbəti avantürası bir daha göstərdi ki, regionda formalaşmış yeni reallığın dəyişdirilməsi isitqamətində atılan istənilən addım Ermənistanın özü üçün yeni faciələrə səbəb olacaq. Ermənistanın Azərbaycanla sərhədinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu, Azərbaycanın təhlükəsizliyinə təhdid yaradan bütün hərbi təyinatlı obyektlər darmadağın edildi. Bu obyektləri bərpa etmək üçün Ermənistana ən azı 4-5 il vaxt lazımdır. Azərbaycan həmin bölgədə bütün nəqliyyat-kommunikasiya sistemini, çox mühüm yüksəklikləri nəzarətə götürdü. Artıq nə indi, nə də gələcəkdə Ermənistan Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək. Ermənistanın xeyli sayda hərbi texnikası, milyarddan artıq dəyəri olan iki S-300 raketi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarla postu məhv edildi. Ermənistanda yüzlərlə ölü və yaralı var. Ermənistanın ölkəmizə və hərbi bölmələrimizə qarşı ardıcıl həyata keçirdiyi təxribatların hansı acı nəticələrə gətirib çıxaracağı bir daha aydın göründü. Azərbaycan Ordusu cəmi 7 saat davam edən unikal cavab əməliyyatı gerçəkləşdirməklə Ermənistanın uzun müddətdir qurduğu planları alt-üst etdi. Ermənistan başa düşməlidir ki, kiməsə, hansısa qüvvələrə arxalanıb Azərbaycanı fakt qarşısında qoya bilməz.

> “Rəsmi İrəvan müxtəlif bəhanələrlə sülh müqaviləsinin imzalanmasında, əməkdaşlıqda, regionun sabitliyi və təhlükəsizliyinin təmin olunmasında iştirakdan qaçır”

Hazırkı hadisələri 2020-ci il Tovuz hadisələrindən fərqləndirən önəmli cəhət odur ki, həmin dövrdə Azərbaycan əraziləri işğal altındaydı. Bu gün isə Azərbaycan Ordusu Azərbaycanın dövlət sərhədinin Kəlbəcər, Laçın, Zəngilan rayonları istiqamətində Ermənsitanın təxribatlarına layiqli cavab verir. Ermənistanın son təxribatı nəticəsində həlak olmuş əsgər və zabitlərimiz öz canlarını doğma torpağımızın müdafiəsi, düşmənin yeni təcavüz planlarına imkan verməmək üçün qurban verdilər. Onlar 2020-ci ilin iyulunda general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digər igidlərimizin qəhrəmanlığını, igidliyini, şücaətini bir daha düşmənə və bütün dünyaya nümayiş etdirdilər. Azərbaycan Ordusu bir daha göstərdi ki, Vətəninə qarşı istənilən addımın, təxribatın qarşısını almaq qüdrətindədir. Heç kimin zərrə qədər şübhəsi olmasın ki, Ermənistanın istənilən təxribat cəhdlərinə ən ağır formada, artıqlaması ilə adekvat cavab veriləcək.

**Politoloq Sədrəddin Soltan deyib ki, Ermənistan ötən illər ərzində Azərbaycanla sərhədə daha çox hərbi qüvvə və texnika toplamaqla vəziyyəti gərginləşdirməkdə davam edib. Hətta iş o yerə çatıb ki, Ermənistan Azərbaycanla sərhədi Rusiya hərbçilərinin qoruması təklifi ilə çıxış edib:** ”Bu, rəsmi İrəvanın regionda gərginliyi artırmaq üçün sərhəd bölgəsində təxribatlara hazırlıq üçün cədhlərindən sayıla bilər. Tovuz döyüşlərindən sonra Ermənistanın siyasi-hərbi rəsmiləri törətdiyi təxribatdan qürurla danışmağa başladı. Bundan bir müddət əvvəl Ermənistanın ovaxtkı müdafiə naziri David Tonoyan ”ərazi qarşılığında sülh”ü qəbul etmədiklərini bildirərək başqa bir tezis irəli sürmüşdü: ”Yeni müharibə - yeni ərazi. Biz rəqibin ərazisində hərbi fəaliyyət göstərə bilmək üçün taqımların sayını artırmalıyıq”. Baş nazir Nikol Paşinyan isə onu dəstəkləyərək hökumət rəsmisinin dediklərini malalamağa çalışsa da, səhvə yol vermişdi: ”Tonoyan başqa bəyanatla çıxış etsəydi, onu müdafiə naziri vəzifəsindən azad edərdim”. Ermənistanın hərbi-siyasi hakimiyyətinin bu kimi çoxsaylı müharibəyə çağırış və işğalçı çıxışlarından sonra Tovuz döyüşləri baş vermişdi. Həmin dövrdə də Azərbaycan sülh çağırışları və ərazi bütövlüyünün dinc yolla təmin olunmasına dair çıxşlar edir, təkliflər irəli sürürdü. Həmin hadisələr sentyabrın 27-də Azərbaycanın əks-həmlə əməliyyatı ilə 44 gün davam etdi. Azərbaycan torpaqlarının böyük bir hissəsini Ermənistanın işğalından qurtardı. Paşinyan kapitulyasiya aktına imza atdı. İndi Ermənistan məğlub tərəf olaraq üzərinə düşən öhdəliklərə əməl edib, sülh müqaviləsinin imzalanması üçün hazırlıq işlərinə diqqət ayırmaqdansa, yenə təcavüzkar, təxribat əməllərinə əl atır. Nikol Paşinyan Brüssel və Moskvada keçirilən görüşlərdə ölkələr arasında sərhədlərin müəyyənləşməsi və sülh müqaviləsinin imzalanmasına hazırlıqla bağlı işçi qrupların yaradılmasına razılıq versə də, sonradan sözünə əməl etmir. Rəsmi İrəvan müxtəlif bəhanələrlə sülh müqaviləsinin imzalanmasında, əməkdaşlıqda, regionun sabitliyi və təhlükəsizliyinin təmin olunmasında iştirakdan qaçır. Belə çıxır ki, Tovuz döyüşlərindən sonra Ermənistan Azərbaycan əsgərindən aldığı dərsləri unudub. Hadisələr, İrəvan rəsmilərinin çıxışı, bəyanatı və bəhanələri Ermənistanın regionda və dünyada təhlükəsizliyə, sabitliyə və əməkdaşlığa qarşı olduğunu təsdiqləyir. Belə qənaətə gəlmək olar ki, onları buna sanksiyalarla vadar etmək mümkündür. Ona görə də beynəlxalq ictimaiyyətin Ermənistanın başını sığallaması müddətinin başa çatdığını da düşünmək olar. Sığalın sanksiya ilə əvəzlənməsi üçün Ermənistan bütün qaydaları çoxdan pozub”.

**“Ermənistanın Baş naziri Nikol Paşinyanın Vladivostokda Rusiya Prezidenti Vladimir Putinlə görüşü və daha sonra ABŞ Dövlət Departamentinin nümayəndəsi Filip Rikerlə müzakirələri onun növbəti təxribatına rəvac verdi”.**



*Bu barədə ”Şərq”ə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Paşinyan ya aldadılıb, ya da görüşlərdən öz təxəyyülündə hansısa nəticələr çıxarıb:* ”Paşinyan öz komandası daxilində Azərbaycana münasibətdə yaranan fikir ayrılıqları səbəbilə ikibaşlı mövqedə dayanıb və sərhəd toqquşmaları da həmin ikili oyunların nəticəsi idi. O, nostalji erməni şüuruna qapılaraq sülh danışıqlarına zərbə vuran açıqlamalar verirdi. Gah Qarabağa status istəyir, bu istəkləri boğulduqdan sonra isə diplomatik manerasını dəyişərək Qarabağın hüquqi mübahisə məsələsi olduğunu bildirirdi. Bu azmış kimi sərhədlərin delimitasiyasına dair də sürüşkən mövqedə dururdu. Yəni Paşinyan Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatların, Brüsseldə əldə olunmuş razılıqların icrasını, sərhədlərin delimitasiya prosesini yubadırdı. Sülh gündəliyini ya naşılıqdan, ya da ki biləkdən sabotaj edirdi. Bütün bunlar revanşist duyğuları süni şəkildə stimullaşdıran ideyalar toplusu rolunu oynadı. Ermənistandakı hakim qüvvələr özlərinin provokativ niyyətlərini Paşinyanın mövqeyinə calayaraq sərhəddə vəziyyəti İrəvanın xeyrinə dəyişdirməyə girişdilər”.

# Paşinyan nəyə arxalanmışdısa, xəyalları suya düşdü

## Azərbaycan hərbi təxribatlara tutarlı və miqyasca daha geniş şəkildə cavab verərək regional təhlükəsizlik arxitekturasına təhdidləri aradan qaldırır

**Analitikə görə, sentyabrın 12-dən 13-nə keçən gecə Kəlbəcər, Laçın və Daşkəsən istiqamətindəki hərbi eskalasiyanı qidalandıran Ermənistan idi:** ”Ona görə ki, Ermənistan sərhəd zolağında yeni hərbi obyektlər yaradır. Kəlbəcər və Laçın istiqamətində gələcək hücum üçün plasdarm formalaşdırırdı. Azərbaycan sərhəddən Ermənistanın hərbi addımlarını diqqətlə izləyir və operativ vəziyyəti təhlil edərək növbəti hücum hazırlandığını görürdü. Azərbaycan sərhəddə Ermənistanın silahlarının və qüvvələrinin həddən artıq cəmləşməsini regional sabitliyə xələl gətirən amil kimi nəzərdən keçirirdi. Buna görə də Azərbaycan hərbi təxribatlara tutarlı və miqyasca daha geniş şəkildə cavab verərək regional təhlükəsizlik arxitekturasına təhdidləri aradan qaldırır. Təhlükəsizliyin hərbi vasitələrlə təmini baş tutduqdan sonra beynəlxalq aləmdə Azərbaycana qarşı qərəz ifadə olunur. İndi rəsmi Bakı təhlükəsizliyin xarici siyasət alətləri ilə möhkəmlənməsi çağırışları ilə üzləşib. Söz effektiv diplomatiyanın, siyasi gedişatları öz xeyrinə dəyişdirmək bacarıqlarının inkişaf etdirilməsindədir. Paşinyan nəyə arxalanmışdısa, xəyalları suya düşdü. Azərbaycan revanşist meyillərə hərbi güc tətbiqi ilə cavab verdiyini və verəcəyini bir daha nümayiş etdirdi. Bundan sonra erməni ruhunda yenidən revanşizm olacaqsa, cavabı adekvat güc tətbiqi ilə veriləcək”.

**İsmayıl Qocayev**

# "TikTok"un fəaliyyəti müvəqqəti dayandırıldı

## Ekspertlər DTX-nin qərarını indiki şəraitdə düzgün və lazımlı addım kimi dəyərləndirib




**Dövlət Təhlükəsizliyi Xidmətinin saytının yaydığı məlumata görə, ”TikTok” sosial şəbəkəsinin ölkə ərazisində yayımlanması müvəqqəti dayandırılıb. Məlumatda qeyd olunub:**

”Məlum olduğu kimi, cari ilin 12-13 sentyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədində törətdikləri genişmiqyaslı təxribatlara qarşı silahlı qüvvələrimiz tərəfindən layiqli cavab tədbirləri görülüb. Hazırda həyata keçirilmiş hərbi əməliyyatlarla bağlı ”TikTok” sosial şəbəkə resursunda ordumuzun uğurlarına kölgə salan, hərbi sirləri özündə əks etdirən, cəmiyyətdə yanlış fikir formalaşdırmaq məqsədi güdən məlumatlar yayımlanmaqdadır. Göstərilənlərlə əlaqədar, ”TikTok” sosial şəbəkəsinin fəaliyyətinin Azərbaycan ərazisində müvəqqəti məhdudlaşdırılması qərara alınıb və bunun üçün aidiyyəti orqanlar qarşısında vəsatət qaldırılıb”.

**Məsələyə münasibət bildirən”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz bu haqda “Şərq”ə danışarkən bildirib ki, ”TikTok” bundan öncə də uşaqlara və yeniyetmələrə kifayət qədər zərərli informasiyalar verən bir sosial şəbəkə idi:** ”DTX-nin verdiyi açıqlama indi əvvəlki risklərə yenilərinin də əlavə olunduğunu göstərir. Hazırda bu sosial şəbəkədə Ermənistan-Azərbaycan sərhədində vəziyyətin gərginləşməsi ilə bağlı çaşqınlıq yaradacaq, düşmən üçün faydalı ola biləcək məlumatlar da yer alıb. ”TikTok” istifadəçilərinin əksəriyyəti yeniyetmələr, uşaqlardır. Onlar da bəzən fərqinə varmadan, məlumatsızlıqdan bizim təhlükəsizliyimizə zərər verə biləcək paylaşımlar edirlər. DTX mövcud riskləri dəyərləndirərək aidiyyəti dövlət qurumları qarşısında belə bir vəsatət qaldırıb. Hesab edirəm ki, indiki şəraitdə bunu düzgün və lazımlı addım kimi dəyərləndirmək olar”.

**Günəş Mərd**

# Sərhəddə baş verən təxribatlar Moskvanın hazırladığı senaridir

## Cümşüd Nuriyev: “Rusiyanın məqsədi diqqəti ABŞ-ın üzərinə yönləndirmək, tərəfləri Amerikadan şübhələndirmək idi”



**ABŞ-ın dövlət katibi Entoni Blinken Azərbaycan-Ermənistan sərhədində baş verənlərə münasibət bildirərkən, kənar qüvvələrin sülh prosesinə mane olmasından danışıb. Blinken Rusiyanın ”aranı qarışdırdığını” istisna etməyib. Dövlət katibi münaqişənin qızışmasında Rusiyanın “aranı qarışdırmış” olmasından narahat olduğunu dilə gətirib. Amerikalı rəsmi bildirib ki, ”bu yolla Rusiya diqqəti Ukraynadakı vəziyyətdən yayındırmağa çalışır”.**

O, Azərbaycan və Ermənistanı düşmənçiliyə son qoymağa çağırıb və əlavə edib ki, Rusiya öz nüfuzundan istifadə edərək, tərəflər arasında ”suları durulda” da bilər. Döyüşlərin müsbət keçdiyi düşünülən son Brüssel görüşündən sonra baş verməsi də, Rusiyanın bu görüşə qısqanclıqla yanaşmış olması barədə spekulyasiyaları da artırıb. Ancaq siyasi tədqiqatçı Lavrens Broersin fikrincə, döyüşlərin Brüssel görüşündən sonra baş verməsi heç də Rusiyanın bu işdə barmağının olması kimi anlaşılmamalıdır. Onun sözlərinə görə, əksinə, hərbi toqquşmalar Rusiyanın regiondakı maraqlarına ziddir. Çünki döyüşlərin intensiv xarakter alması onu göstərir ki, Rusiya bölgədə sülhü qorumaqda acizdir: ”Bu isə Rusiyanın həm Azərbaycanda, həm də Ermənistanda nüfuzunun aşağı düşməsi deməkdir. Kremlin bu cür silahlı toqquşmalarda maraqlı olduğuna inanmıram”.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev də ”Şərq”ə bildirib ki, Azərbaycan-Ermənistan sərhədində baş verən təxribatlar birmənalı şəkildə Moskvanın hazırladığı senari əsasında həyata keçirilir.** Professor bildirib ki, ABŞ rəsmisi ABŞ-ın Cənubi Qafqaz danışıqları üzrə xüsusi nümayəndəsi Filip Riker İrəvan və Bakını ziyarət etdikdən sonra sərhəddə təxribat üçün ermənilərə təlimat verildi: ”Rusiyanın məqsədi diqqəti ABŞ-ın üzərinə yönləndirmək, tərəfləri Amerikadan şübhələndirmək idi. Amma bu plan baş tutmadı. Çünki rəsmi Vaşinqton hadisələrə münasibətini açıqladı və Brüssel görüşləri çərçivəsində sülhdə maraqlı olduğunu vurğuladı. ABŞ Cənubi Qafqazda münaqişə ocağının yenidən qızışmasını istəmir. Azərbaycan tərəfindən söndürülmüş bir ocağı yenidən körükləmək Qərb üçün əlverişli deyil. İndiki məqamda Azərbaycan-Ermənistan gərginliyini artırmaq ilk növbədə Rusiyaya və İrana sərf edir. İran faktorunu yaddan çıxartmaq olmaz. Yaddan çıxarmayaq ki, Ermənistan Baş naziri Nikol Paşinyan İran səfərindən geri döndükdən sonra ritorikasını dəyişdi. Parlamentdə çıxış edən baş nazir ”status”dan danışdı, sülh müqaviləsi ilə bağlı absurd açıqlamalar verməyə başladı. Azərbaycan rəhbərliyi bütün təmaslarda haqlı olaraq vurğulayır ki, ”Qarabağ məsələsi müzakirə mövzusu deyil və Azərbaycanın daxili işidir”. Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı sərsəm ifadələri də sırf İran üçün lazımlı bəyanat idi. Tehran hökuməti yenə də xəyanət mövqeyindədir. ”İSMA” Agentliyi ”Azərbaycanın Ermənistana hücum çəkdiyini” iddia etdi. Rəsmi Bakını ”təcavüzkar rejim” kimi qələmə verdilər. İranın xarici işlər naziri ”Ermənistan sərhədlərinin onlar üçün qırmızı xətt olduğunu” dedi. Farsmolla rejimi dərk etmir ki, hələ Azərbaycan-Ermənistan arasında sərhəd müəyyənləşməyib”.

**C.Nuriyevə görə, Rusiya da İrəvanı təxribata təhrik etməsini dolayı yolla etiraf etmiş oldu:** ”Bildirdilər ki, Avropa İttifaqı, guya, Moskvanı Qafqazdan sıxışdırıb çıxartmaq istəyir. Yəni iddia edirlər ki, Avropa İttifaqı, guya, Azərbaycanın əliylə Rusiyanı regiondan sıxışdırıb çıxartmağa çalışır. Ona görə də öz məntiqləri ilə Azərbaycanı ”cəzalandırmaq” niyyətinə düşüblər. Rusiya rəsmilərinin açıqlamalarının diplomatik izahı budur. Lakin Rusiya və İranın Ermənistan üzərindən oynadıqları oyunlar baş tutmur. Azərbaycan rəhbərliyi və Ordumuz bütün məkrli planları alt-üst etdi. Kreml anlamır ki, Azərbaycanı təhdid və təzyiqlə geri addım atmağa məcbur etmək olmaz. İndi bizim yanımızda güclü, qardaş Türkiyə var”.

**İsmayıl Qocayev**



# Birbaşa əlaqə kanalları bərpa olunmalıdır

## ABŞ Bakı və İrəvanı hərbi əməliyyatlardan çəkinməyə çağırıb

**Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Azərbaycan və Ermənistan sərhədində baş vermiş son vəziyyətlə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: ”Türk Dövlətləri Parlament Assambleyasının Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində insan tələfatı və yaralanması ilə nəticələnən hərbi təxribatı ilə bağlı dərin narahatlığını bildirir və bu vəziyyəti qətiyyətlə qınayır.**

TÜRKPA beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini və qardaş Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, Cənubi Qafqazda davamlı sülh və sabitlik naminə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün səylərin əhəmiyyətini vurğulayır. Katiblik qardaş Azərbaycan xalqına və şəhid ailələrinə başsağlığı verir, Allahdan şəhidlərə rəhmət, qazilərə və xəsarət alanlara şəfa diləyir”.

**TDT erməni təxribatını pislədi**

Türk Dövlətləri Təşkilatı Ermənistanın Azərbaycanla sərhəddə hərbi təxribatını pisləyib. Bu barədə Türk Dövlətləri Təşkilatının baş katibinin Azərbaycan-Ermənistan sərhədində baş verən son toqquşmalarla bağlı bəyanatında deyilib: ”Baş katib bununla bağlı ciddi narahatlığını ifadə edir, eləcə də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanla dövlət sərhədi boyunca hərbi təxribatını pisləyir. Təşkilat beynəlxalq hüququn prinsip və normalarına sadiqliyini bir daha təsdiqləyir, Cənubi Qafqazda davamlı sülh və sabitlik üçün Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin vacibliyini xatırladır. TDT Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını dəstəklədiyini bir daha bəyan edir və Ermənistanı iki qonşu ölkə arasında əldə olunan davam edən razılaşmalara əməl etməyə çağırır. Katiblik həlak olanların ailələrinə, qardaş Azərbaycan xalqına və hökumətinə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayır.

**“Azərbaycan terrorçu Ermənistan qarşısında heç vaxt tək deyil”**

Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı bildirib ki, Azərbaycanın Qarabağ Zəfərini həzm edə bilməyən və işğal olunmuş Azərbaycan torpaqlarından atılmış erməni quldur dəstələri öz hücumlarını sürətləndirir, qanlı və xain təxribatlara əl atırlar. O qeyd edib ki, Türkiyə Azərbaycanla sona qədər həmrəydir: ”Can Azərbaycan terrorçu Ermənistan dövləti və onun arxasında duran zalımlar qarşısında heç vaxt tək deyil. Türk milləti öz soydaşlarının arxasındadır. Milliyyətçi Hərəkat Partiyası ermənilərin hücumlarını pisləyir və Qarabağın azad olunmasına qarşı uzanan əllərin qırılacağına inanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qardaş ölkə Azərbaycan hər cür qəddar və nalayiq oyunları məhv etməyə qadirdir. Türkiyənin də dəstəyi tamdır”. MHP sədri Ermənistanı meydana çıxaran və ondan ”piyada” kimi istifadə edən istənilən ölkənin yarana biləcək ağır nəticələrə görə məsuliyyət daşıdığını vurğulayıb: ”Vətən uğrunda şəhid olan qəhrəman əsgərlərimizə Allahdan rəhmət diləyir, Prezident İlham Əliyevin timsalında qardaş Azərbaycan xalqına və əziz türk millətinə başsağlığı verirəm. Unutmaq olmaz ki, bir kərə yüksələn bayraq bir daha enməz”.

**Roma Papası tərəfləri sülh üçün dua etməyə çağırıb**

Roma Papası Fransisk Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilən dini ayin zamanı insanları Azərbaycan və Ermənistan arasında sülh üçün dua etməyə çağırıb: ”Mən bu saatlarda Qafqaz regionunda yeni gərginlik ocaqlarının alovlandığını təşviş içində öyrəndim. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması üçün insanları dua etməyə çağırıram”.

**“ABŞ normallaşma prosesinə bütün vasitələrlə dəstək verməyə hazırdır”**

Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Riker arasında görüş keçirilib. Tərəflər bölgədə mövcud olan gərgin vəziyyəti və normallaşma prosesinə qayıtmaq üçün mümkün addımları müzakirə ediblər. Nazir Ermənistanın əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərini yerinə yetirməsinin, erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən tam çıxarılmasının və təxribatlara son verməsinin vacib olduğunu qarşı tərəfin diqqətinə çatdırıb. İki ölkə sərhədində yaşanan gərginlikdən narahatlıq ifadə edən Filip Riker vəziyyətin sabitləşməsinin vacibliyini vurğulayıb. O, bütün fikir ayrılıqlarının siyasi və diplomatik yolla həllinin tərəfdarı olduqlarını və ABŞ tərəfinin normallaşma prosesinə bütün vasitələrlə dəstək verməyə hazır olduğunu bildirib. Görüş zamanı, həmçinin normallaşma prosesinin müxtəlif aspektləri, bu istiqamətdə zəruri addımlar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**“Azərbaycanla Ermənistan arasında danışıqların bərpa olunması zəruridir”**

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar deyib ki, atəşkəsə əməl olunması, normallaşma prosesinin və Azərbaycanla Ermənistan arasında danışıqların bərpası zəruridir. Xüsusi nümayəndə Toivo Klaar toqquşmaların dayandırılmasının və vəziyyətin sabitləşməsinin zəruri olduğunu diqqətə çatdırıb. Avropa İttifaqının tərəflər arasında ikitərəfli görüşlər üçün şərait yaratmağa hazır olduğunu bildirib.

**“ABŞ rəsmiləri Azərbaycan-Ermənistan sərhədindəki vəziyyətlə bağlı görüşlər keçirir”**

ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib ki, həm ABŞ dövlət katibi Entoni Blinken, həm də Birləşmiş Ştatların regiondakı müvafiq diplomatları həmsöhbətləri ilə görüşlərini davam etdirirlər. Prays bildirib ki, region ölkələri Azərbaycan və Ermənistan arasında münaqişələrin dayandırılmasına çalışmalıdırlar: ”Bütün ölkələr münaqişələrin dayandırılması və gərginliyin azaldılması ilə bağlı razılığa gəlmək üçün öz təsirlərindən konstruktiv istifadə etməlidirlər”.

**“Bu münaqişə hərbi yolla həll edilə bilməz”**

Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi keçirdiyi növbəti brifinqdə deyib ki, Ermənistanla Azərbaycan arasındakı münaqişənin hərbi yolla həlli yoxdur: ”ABŞ Ermənistan-Azərbaycan sərhədində eskalasiya barədə məlumatlardan narahatdır. Biz bu zorakılığa son qoymaq üçün Ermənistan və Azərbaycan hakimiyyətləri ilə fəal şəkildə əlaqə saxlayırıq”. O, Blinkenin Azərbaycan və Ermənistan liderləri ilə danışdığını xatırladıb: ”Biz demişik, amma bir daha təkrar etməyi lazım bilirəm ki, bu münaqişə hərbi yolla həll edilə bilməz. Biz növbəti hərbi əməliyyatlardan çəkinməyə çağırırıq. Biz həmçinin tərəfləri həm diplomatik, həm də hərbi baxımdan birbaşa əlaqə kanallarını bərpa etməyə və böhrandan çıxmaq üçün diplomatik prosesə sadiqliyini təsdiqləməyə çağırırıq”.

**“Quterreş sərhəddəki vəziyyətdən narahatdır”**

BMT-nin Baş katibi Antonio Quterreş Azərbaycan-Ermənistan sərhədində vəziyyətin yenidən gərginləşməsindən narahatdır. Bu barədə qurumun sözçüsü Stefan Düjarrik məlumat verib. Onun sözlərinə görə, baş katib tərəfləri gərginliyin azaldılması üçün addımlar atmağa, maksimum təmkin nümayiş etdirməyə və hər hansı həll olunmamış problemləri dialoq və mövcud formatlar çərçivəsində həll etməyə çağırır: ”O, həmçinin tərəfləri əvvəllər əldə edilmiş razılaşmaları tam şəkildə yerinə yetirməyə çağırır. Baş katib regionda davam edən bütün vasitəçilik səylərini dəstəklədiyini bildirir”.

**İsmayıl**

# Səbuhi kimsəsiz deyil

## Ata-anasız şəhidə xalq sahib çıxdı



“Səbuhi Əhmədovun şəhidliyi uşaq bağçalarında körpələrə əl qaldıran, sığınacaqlara sığınmış məzlum balalara zülm edənlərə ən layiqli cavab, nümunə götürməli olduqları həyat dərsidir”

**Xalq şəhid övladları arasında heç vaxt ayrı-seçkilik etmədi. Şəhidlər hər zaman baş tacımızdır. Amma 12 sentyabrda şəhid olanlardan biri hər kəsin ürəyini yaman göynətdi.**






SOS uşaq sığınacağı kəndində böyümüş, 2 yaşı olarkən ata-anasını itirmiş, indi isə Vətənin qəhrəman-şəhid övladı kimi dəfn edilən Səbuhi Əhmədov! Ondan daha çox danışılır, çünki onun Anası, Atası, birbaşa Vətənin özüdür. Vətənin minlərlə, milyonlarla insanı onun şəhidliyinə ”mübarəkdir”, deyir.

Səbuhi uşaq sığınacağında qardaşı Sənanla birgə böyüyüb. Sənan Əhmədov qardaşı haqqında bunları danışıb: ”Qardaşıma zəng etdim, telefonu başqası açdı, bir kəlmə dedi ki, qardaşının qisasını almışıq... Başa düşdüm ki, qardaşım şəhid olub. Hərbiyə gedəndə həmişə deyirdi ki, mənimlə fəxr edəcəksən. Gizir idi. Həmişə dediyini edərdi. 3 gün olardı zəng etmişdi ki, düşmən tərəfdə atışma var. Elə həmin günün səhəri zəng elədi, danışdıq. Dedi tez aç, imkan olmayacaq. Sentyabrın 13-ü zəng elədim, artıq qardaşım şəhid olmuşdu. 25 yaşı var idi. Qardaşımla fəxr edirəm, amma onsuz mənə çox çətin olacaq”.

Erməni silahlı birləşmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi təxribat nəticəsində şəhid olan Səbuhi Əhmədovla dünən vida mərasimi keçirilib. Şəhid Səbuhi Əhmədov II Fəxri Xiyabanda dəfn olunub. Şəhidi izdihamlı insan seli son mənzilinə yola salıb. Onun dəfnində minlərlə insan iştirak edib, məzarı gül-çiçəyə qərq edilib. Ata-anasız şəhidə xalq sahib çıxıb.

**Araşdırmaçı jurnalist Asəf Quliyev şəhid Səbuhi Əhmədov haqqında bunları yazıb:** ”Yadınızdadırsa, 44 günlük müharibədə Gəncədə uşaq evində böyüyən bir oğlan da şəhid olmuşdu. Çox təmtəraqla dəfn olundu. Hamı onu unutmayacağını söylədi... Adını xatırlayırsız? Yəqin ki, yox. Heç mən də xatırlamıram. Əlbəttə, interneti axtarıb adını tapıb yaza bilərdim. Amma bu, ikiüzlülük olardı. Xatırlamırıq. Niyə uşaq evində böyüyən oğlanı yada saldım? Çünki onu yada salacaq nə anası var, nə atası. Nə bacısı var, nə qardaşı. Şəkildə gördüyünüz bu oğlan da atasız, anasız böyüyüb. SOS uşaq kəndində. Son döyüşdə şəhid olub. Ona heç kim oğul deməyib. Onu heç kim öz övladı kimi ağlamayacaq. Bir neçə gündən sonra onu heç kim yada salmayacaq. Amma onun arzuları vardı. Onun çətinliklə böyüdüyü həyatla mücadiləsi vardı. O öz acı taleyindən haqq-hesab sormalıydı. Amma bunların heç biri olmadı. Onun fotosunu görəndən siması gözümün önündən getmir. Çoxdandı, lap çoxdandı ağlamırdım. Amma onun haqqında düşünəndə özümü saxlaya bilmədim. Ona Vətən oğul demişdi. O da vətən üçün şəhid oldu.

Şəhid oldu ki.... Şairlər şeirlər yazsın. Politoloqlar şərhlər versin. Jurnalistlər reportajlar hazırlasın. Müğənnilər mahnılar oxusun. Məmurlar rüşvət alsın. Həkimlər xəstəyə pul dağarcığı kimi baxsın. Müəllimlər şagirdlərə vətənpərvərlik dərsi keçsin. Dindarlar şəhidlik haqqında moizələr oxusun. O, şəhid oldu ki, yaltaqlar yaltaqlansın, alçaqlar alçaqlansın... O, şəhid oldu ki, arzuları həyata keçməsin. O, şəhid oldu ki, çətinliklə böyüdüyü həyatla mücadilə aparmasın. O, şəhid oldu ki, öz acı taleyindən haqq-hesab sormasın. Və hər şey bitdi”.

Səbuhi Əhmədovun şəhidliyi uşaq bağçalarında körpələrə əl qaldıran, sığınacaqlara sığınmış məzlum balalara zülm edənlərə ən layiqli cavab, nümunə götürməli olduqları həyat dərsidir; sizə sığınan, yardımınıza ehtiyacı olan uşaqlara əl qaldırmayın, vurmayın, döyməyin, bir parça çörəklərinə göz dikməyin. Gün gələcək, siz onların müdafiəsinə möhtac olacaqsınız. Yaxasından tutub dartışdırdığınız uşaqlar yaxanız mənfur düşmən əlinə keçməsin deyə itələdiyiniz sinələrini sizin üçün sipər edəcək. Səbuhi Əhmədov kimi! Dünəndən həm də yazırlar ”evsiz şəhid”, ”kimsəsiz şəhid” Şəhid kimsəsiz olmur. Şəhid evsiz də olmur. Şəhidin doğması, atası, anası millətdir, şəhidin evi Vətəndir! Mehmet Akif Ərsoy belə yazıb: Ey şəhid oğlu şəhid! İstəmə məndən məqbər. Sənə ağuşunu açmış, duruyor Peyğəmbər!”. Bunlar pafoslu, boğazdan yuxarı deyilən sözlər deyil. Həqiqətdir! Şəhid məqamının ucalığını anlamaq da hər kəsin nəsibi olmur.

**Cənnət sakinlərinə salam olsun!**

**Məlahət Rzayeva**

# Güc birlikdədir

## Türkiyə ordumuzun NATO standartları çərçivəsində yenidən formalaşmasında böyük dəstək göstərir

**Sentyabrın 14-də Azərbayjan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Jümhuriyyəti Milli Müdafiə Universitetinin rektoru, professor Erhan Afyonjunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə naziri qonaqları salamladıqdan sonra Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbayjan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəjər və Laçın istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar barədə məlumat verib.

Görüşdə Türkiyə ilə hərbi müttəfiqlik çərçivəsində digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də birgə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vajibliyi vurğulanaraq bu istiqamətdə Türkiyə Milli Müdafiə Universiteti ilə təjrübə mübadiləsinin aparılmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Professor E.Afyonju isə öz növbəsində genişmiqyaslı təxribat nətijəsində şəhid olanlarla bağlı başsağlığı verdikdən sonra hərbi təhsil sahəsində qarşılıqlı təjrübə mübadiləsinin hərbi qulluqçuların bilik və bajarıqlarının artırılmasına müsbət təsirini qeyd edib və bu sahə üzrə görülən işlərin bundan sonra da davam etdiriləjəyini bildirib. Görüşdə hərbi-təhsil və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov ”Şərq”ə açıqlamasında deyib ki, Azərbayjan onsuz da Türkiyə ilə bütün sahələr üzrə əməkdaşlığını üst sıralara çatdırıb**. Xüsusilə hərbi və müdafiə sənayesi sahəsində Azərbayjan və Türkiyə əlaqələri misli görünməmiş inkişaf dövrünü yaşayır: ”Gələjəyə yönəlik verilən açıqlamalar və proqnozlarda hərbi və müdafiə sənayesi sahəsindəki əməkdaşlığın perspektivləri hiss görünür”.

*Politoloqun sözlərinə görə, hərbi təhsil sahəsində də birgə əməkdaşlığın daha da inkişaf etdirilməsi ordumuzun döyüş imkanlarının daha da genişlənməsinə səbəb olajaq:* ”Bundan əvvəl də digər qoşun növlərinin Türkiyənin hərbi təhsil müəssisələri ilə qarşılıqlı əlaqələri mövjuddur.

Ordumuzun NATO standartları çərçivəsində yenidən formalaşmasında da Türkiyənin müstəsna xidmətləri var. Dünyanın ən qabaqjıl, peşəkar hərbi birləşmələrindən hesab edilən Türkiyə ordusu ilə Azərbayjan Silahlı Qüvvələrinin bu qədər yaxın əlaqələrinin olması ordumuzun daha da güjlənməsinə səbəb olajaq”.

**Şəymən**

# Almaniyadakı səfirliyimizdə maliyyə pozuntuları aşkarlanıb

## Rauf Zeyni: “Bütün günahkar şəxslər ən ağır şəkildə cəzalanmalıdır”



**Azərbaycanın Almaniyadakı səfirliyinin 30 dekabr 2014-cü il tarixdən 01 oktyabr 2021-ci il tarixinə qədərki dövrdə maliyyə-təsərrüfat fəaliyyəti təftiş edilib.**

Proses zamanı bank çıxarışlarındakı məlumatların dəyişdirilərək saxtalaşdırılması üzə çıxıb.

Həmçinin bank hesablarında olan vəsaitlərin, o cümlədən konsulluq əməliyyatları üzrə dövlət rüsumlarının təyinatından başqa hesablara köçürülməsi yolu ilə mənimsənilməsi halları müəyyənləşib.

Maliyyə Nazirliyinin məlumatına görə, aşkar edilmiş pozuntuların ciddiliyi nəzərə alınaraq təqsirkar vəzifəli şəxslər barəsində müvafiq tədbirlər görülməsi məqsədilə yoxlama materialı Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) təqdim edilib.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan Qeyri Hökumət Təşkilatları Forumunun (MQF) prezidenti Rauf Zeyni heç bir məmurun dövlət vəsaitini özününküləşdirmək hüququnun olmadığını deyib:**

”Səfirliklər və konsulluqlar dövlət vəsaitlərini yalnız təyinatı üzrə xərcləməlidir. Heç bir vəzifəli şəxsin bu vəsaiti mənimsəməyə haqqı yoxdur. Dövlətin ayırdığı maliyyəni özününküləşdirmək böyük bir cinayətdir. Azərbaycanın Almaniyadakı səfirliyində həmin hadisələr daha dərindən araşdırılmalı və bütün günahkar şəxslər ən ağır şəkildə cəzalanmalıdır. Günahkarlara qarşı sərt cəza tədbirləri görüldüyü təqdirdə digər məmurlar dövlət əmlakını mənimsəməkdən çəkinəcəklər”.

**Nihat Müzəffər**



# Son vida!

## Şəhidlərimiz doğulduqları rayonlarda son mənzilə yola salınıb

**Cəbhə xəttindən hər şəhid xəbəri gələndə biz də ölürük onlarla. Qəhərdən boğuluruq, onlara dəyən güllə yarasını içimizdə hiss etdiyimizi sanırıq. Şəhidlərimizin dəfn mərasimində isə görürük ki, torpağa tapşırdığımız təkcə şəhidlər deyil. Onlarla birlikdə anaların, ataların da üstünə torpaq atırıq. Onların acısını anlayırıq, amma o ağrını onlar qədər yaşamırıq. Şəhid dəfnlərində çəkilən şəkillər və videolara baxanda bu aydınca görünür. Səssiz sandığımız bu fotolar əslində dili ilə ürəyimizə köz basır. Müharibənin, savaşın görmədiyimiz, bilmədiyimiz üzündən danışır bizə. Ata-anaların, körpə övladların gizlətmək istədikləri, amma gizlədə bilmədikləri ağrı, əzab yağır o fotolardan.**

Şəhid ailəsi qədər olmasa da, bu ağrını cəmiyyət olaraq illərdir yaşayırıq. Amma boynumuzda ”Vətən sağ olsun” deyib məğrur dayanmaq kimi böyük bir yük var. Hərbçilərimiz vətəni, bir qarış torpağı uğrunda canlarından keçiblər, onların bu şücaəti qarşısında boynumuzu büküb düşməni sevindirməyə nə haqqımız var!?

Qeyd edək ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanla dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Genişmiqyaslı təxribatın qarşısı alınarkən Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçu olmaqla ümumilikdə Silahlı Qüvvələrin 50 hərbi qulluqçusu şəhid olub.

Vətənimizin müdafiəsi uğrunda şəhid olan hərbçilərimizlə vida mərasimi dünən doğulub boya başa çatdıqları evlərində keçirilib və öz rayonlarındakı Şəhidlər Xiyabanında torpağa tapşırılıblar.

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribat nəticəsində şəhid olan Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) giziri Lənkəranda torpağa tapşırılıb.

1998-ci il təvəllüdlü şəhid Xəyal Əlövsət oğlu Əhədzadə doğulduğu Nərimanabad qəsəbəsindəki qəbiristanlıqda dəfn edilib. X.Əhədzadə 44 günlük Vətən müharibəsinin iştirakçısı olub. O, döyüşdə göstərdiyi qəhrəmanlıqlara görə Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ”Azərbaycan Bayrağı” ordeni, ”Füzulinin azad olunmasına görə”, ”Cəbrayılın azad olunmasına görə”, ”Kəlbəcərin azad olunmasına görə” və ”Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Şəhidin dəfni izdihamla müşayiət olunub. Mərasimdə rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, hərbçilər və şəhid ailələri iştirak edib. Şəhidlərimizin ruhlarına dualar oxunub. Çıxışlarda şəhidlərimizin qisasının alındığı, düşmən təxribatının qarşılığı olaraq, əks mövqelərə sarsıdıcı zərbələr endirildiyi vurğulanıb.

Şəhid tabutuna bükülən üçrəngli bayraq Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı Taleh Qaraşov tərəfindən şəhidin atasına təqdim olunub.

Şəhid Hüseynov Ziyarət Mayıl oğlu doğulduğu Biləsuvar rayonunun Amankənd kənd qəbiristanlığda torpağa tapşırılıb. Dəfn mərasimində rayon rəsmiləri, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak edib. Z. Hüseynov Xüsusi Təyinatlı Qüvvələrin sıralarında gizir kimi xidmət edirdi. Şəhid Z.Hüseynov ailəli idi, 2 yaşlı oğul övladı yadigar qalıb.

1989-cü il təvəllüdlü baş gizir Elnur Faiq oğlu Rüstəmov Xaçmazın Əbilyataq kəndində torpağa tapşırılıb. 33 yaşlı şəhid ailəli olub, 3 övladı var.

E.Rüstəmov Vətən müharibəsi iştirakçısı olub. O, torpaqlarmızın azad olunmasında göstərdiyi sücaətə görə ”Füzulinin azad olunmasına görə”, ”Zəngilanın azad olunmasına görə”, ”Kəlbəcərin azad olunmasına görə” və ”Cəsur döyüşçü” medalları ilə təltif olunub.

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribat nəticəsində şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Azad Kərimov dəfn edilib. 1994-cü il təvəllüdlü Azad Zakir oğlu Kərimovla Daş Salahlı kəndində, ailəsinin yaşadığı evin önündə vida mərasimi keçirilib.

Vida mərasimində şəhidin yaxınları ilə yanaşı ictimaiyyət nümayəndələri, Qazax sakinləri və hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak edib.

Vida mərasimindən sonra şəhid kənd qəbiristanlığında olan Şəhidlər Xiyabanında dəfn olunub. Qeyd edək ki, gizir A.Kərimov ailəli olub, onun 1 və 3 yaşlı oğlu var.

Qeyd edək ki, Azad Kərimovun həyat yoldaşı da şəhid qızıdır. Belə ki, gizir Kərimovun xanımı Qazax rayon Fərəhli kənd sakini, Birinci Qarabağ müharibəsi şəhidi Azər Hüseynovun övladıdır.

Şəhid Ümid Həsənov Qubada dəfn edilib. Dəfn mərasimində şəhidin doğmaları, hərbçi yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan Ordusunun hərbi qulluqçusu Xəyal Elxan oğlu Süleymanov Şəmkir rayonunda dəfn edilib. 26 yaşlı şəhidimiz doğulub boya-başa çatdığı rayonun Şeyidlər kəndindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Mərasimdə X.Süleymanovun yaxınları ilə yanaşı ictimaiyyət nümayəndələri, rayon sakinləri və hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak edib.





Şəhid leytenant Sərxan Ömərov Zaqatalada dəfn edilib. 1999-cu il təvəllüdlü Sərxan Mübariz oğlu Ömərovun nəşi doğulduğu Yuxarı Tala kəndinə gətirilərək ailəsinə təhvil verilib. Dəfn mərasimindən öncə şəhidin ruhuna hörmət olaraq fəxri qarovul düzülüb və yaylım atəşi açılıb. 23 yaşlı S.Ömərov nişanlıydı, iki bacının yeganə qardaşı idi.

XTQ-nin 31 yaşlı şəhid giziri isə Kürdəmirdə dəfn edilib. Azərbaycan Ordusunun hərbi qulluqçusu, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) giziri, 1991-ci il təvəllüdlü Nəzər Əzizovun nəşi doğulub boya-başa çatdığı rayonun Dəyirmanlı kəndindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Mərasimdə N.Əzizovun ailə üzvləri, yaxınları, ictimaiyyət nümayəndələri, sadə vətəndaşlar iştirak ediblər.

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribat nəticəsində şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Səid Sarıbala oğlu Həsənov dəfn edilib. Cəlilabad rayonunun Əsədli kənd sakini, 1992-ci il təvəllüdlü S.Həsənovun nəşi doğulduğu kəndə gətirilib. Onunla vida mərasimi keçirilib.

Daha sonra şəhid doğulduğu kənddə yaylım atəşi ilə dəfn edilib.

Xüsusi Təyinatlı Qüvvələrin giziri Səid Həsənov 44 günlük Vətən müharibəsində də böyük şücaət göstərib və ”Döyüşdə fərqlənməyə görə”, ”İgidliyə görə”, ”Şuşanın azad olunmasına görə”, ”Füzulinin azad olunmasına görə” və ”Cəbrayılın azad olunmasına görə ” medalları ilə təltif edilib. Qeyd edək ki, şəhid S.Həsənov nişanlı idi.

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribat nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Bədəlov Cavidan Zaur oğlu İsmayıllıda dəfn edilib.

Şəhid doğulub boya-başa çatdığı rayonun Talıstan kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində C.Bədəlovun ailə üzvləri, yaxınları, rayon rəsmiləri, ictimaiyyət nümayəndələri və hərbçilər iştirak ediblər.

1997-ci il təvəllüdlü şəhid Nail Adil oğlu Abbasov Oğuz rayonunda dəfn edilib.

25 yaşlı şəhidimiz doğulub boya-başa çatdığı rayonun Qarabaldır kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, hərbçilər iştirak ediblər. Mərasimdə şəhidin ruhuna hörmət olaraq yaylım atəşi açılıb, ruhuna dualar oxunub.

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən törədilən təxribat nəticəsində şəhid olan əsgər Muradov Bəxtiyar Güloğlan oğlu dəfn edilib.

19 yaşlı şəhidimizin nəşi Sumqayıt Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Mərasimdə B.Muradovun yaxınları ilə yanaşı, şəhər rəsmiləri, ictimaiyyət nümayəndələri, hərbçi yoldaşları və şəhər sakinləri iştirak ediblər.

Azərbaycan Ordusunun şəhidi və atası dəfn edilib. Ermənistan tərəfinin təxribatı nəticəsində şəhid olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu, 1997-ci il təvəllüdlü Vadim Qocayev və onun atası Alik Qocayev dəfn edilib. Hər iki şəxs Qobustan rayonunun Sündü kənd qəbiristanlığında torpağa tapşırılıb. Mərasimdə ictimaiyyət nümayəndələri, sadə vətəndaşlar iştirak ediblər.

Silahlı Qüvvələrin hərbi qulluqçusu Rəfael Fətullayev Neftçalanın Bankə qəsəbəsində dəfn edilib. Şəhidin dəfn mərasimində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, ailə üzvləri, yaxınları, rayon rəsmiləri, hərbçilər və veteranları iştirak ediblər.

Ordumuzun müddətdən artıq hərbi qulluqçusu, Salyan rayonunun Qızılağac kənd sakini, 1996-cı il təvəllüdlü Səmədov Elmi Mirzəli oğlunun nəşi ailəsinə təhvil verilib. E.Səmədov Almalı kənd qəbiristanlığında dəfn edilib. Dəfn mərasimində şəhidin doğmaları, hərbçi yoldaşları, ictimaiyyət nümayəndələri iştirak edirlər. E.Səmədov ailənin yeganə övladı olub.

Şəhid baş leytenant Əli Əliyev son mənzilə yola salınıb.

1997-ci il təvəllüdlü Ə.Əliyev Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dəfn olunub. Qeyd edək ki, şəhid Əli Cavad oğlu Əliyev əslən Şərur rayonunun Yengicə kəndindən idi.

Şəhid Üzeyir Əliyev Göygöldə dəfn edilib. Şəhidin vida mərasimində döyüş yoldaşları, ailə üzvləri, rayon rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid Sadiq Əzizlinin nəşi Qaradağda torpağa tapşırılıb. Şəhidimizin nəşi rayon ərazisindəki qəbiristanlıqda torpağa tapşırılıb.

Mərasimdə S.Əzizlinin ailə üzvləri, yaxınları, ictimaiyyət nümayəndələri, sadə vətəndaşlar iştirak ediblər.

Ermənistanın törətdiyi təxribatlar nəticəsində şəhid olan Rəşad Qasımov dəfn edilib. Cəlilabad rayonunun Alar kənd sakini, 2003-cü il təvəllüdlü əsgər Rəşad Qasımovun nəşi əvvəlcə doğulduğu kəndə gətirilib. Onunla doğulduğu evdə vida mərasimi keçirilib. Daha sonra şəhid doğulduğu kənddə torpağa tapşırılıb.

Qeyd edək ki, şəhid R.Qasımov subay idi.

2003-cü il təvəllüdlü Nihat Mehman oğlu Qasımovun nəşi doğulub boya-başa çatdığı Kiçik Dəhnə kəndinə gətirilərək ailəsinə təhvil verilib. Şəhid kənd qəbiristanlığında torpağa tapşırılıb.

Şəhidin ruhuna hörmət olaraq fəxri qarovul düzülüb və yaylım atəşi açılıb.

Şəhid dəfn olunduqdan sonra Azərbaycanın bayrağı şəhidin atası Mehman Qasımova təqdim olunub.

Qeyd edək ki, 19 yaşlı Nihat Qasımovun hərbi xidmətini başa vurmağına 17 gün qalmışdı.

Allah vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət etsin!

**Şəymən Bayramova**



## Fransa gözüyumulu Ermənistanı müdafiə edir

### Aydın Mirzəzadə: ”Problem Fransa parlamentinin nə qərar qəbul etməsi ilə deyil, Azərbaycan və Ermənistan arasında münasibətlərlə həll edilir”

**”Fransa qeyri-obyektiv, proseslərin kökünə varmadan, gözüyumulu şəkildə işğalçı Ermənistanın mövqeyini müdafiə edən ölkə timsalındadır”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Deputat qeyd edib ki, rəsmi Parisin bu davranışı heç də regionda vəziyyətin stabilləşməsinə xidmət etmir:* ”Ən əsası isə Ermənistanın vəziyyətinin düzəlməsinə, anti-Azərbaycan qətnamələrinə hər hansı bir təsiri olmayacaq.

Problem Fransa parlamentinin nə qərar qəbul etməsi ilə deyil, Azərbaycan və Ermənistan arasında münasibətlərlə həll edilir. Dövlətimiz mövqeyini beynəlxalq hüquq normalarına uyğun olaraq ortaya qoyub. Rəsmi İrəvanın təxribatlarına lazımınca cavablar verir.

Təəssüf ki, Fransa parlamentində ölkəmizə qarşı sanksiyalar tətbiq etmək barədə müzakirələr aparılır. Amma bütün bunların Azərbaycanın vəziyyətinin pisləşməsinə hər hansı təsiri olmayacaq”.

**Sücayət Mehti**

**Sentyabrın 12-si gecə saatlarında sərhəddə genişmiqyaslı təxribat törədən Ermənistan silahlı qüvvələri iki mülki şəxsi də yaralayıblar. Erməni silahlıları tərəfindən açılan atəş nəticəsində Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan Goranboy rayonunun Veyisli kəndində yaşayan Asim Musayev və Qaraçinar kəndində yaşayan İman Orucov oğlu yaralanıblar.**



## Azərbaycanın mülki vətəndaşları da atəşə tutulur

### Təəssüf ki, hələ də bir sıra beynəlxalq qurumlar və ölkələr Ermənistanın feyk xəbərlərinə istinad edirlər

Hazırda Asim Musayev Gəncə şəhəri A.Səhhət adına 1 nömrəli xəstəxanada müalicə alır, onun vəziyyəti orta-ağır qiymətləndirilir. İ.Orucova isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb. Ermənilərin mülki əhaliyə hücumları Xocalıdakı dinc insanlara qarşı soyqırımı aktından sonra təbii ki, təəccüblü deyil. Xatırladaq ki, 2011-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən açılan atəş nəticəsində 9 yaşlı Fariz Bədəlov öz həyətlərində oynayarkən snayper gülləsi ilə vurulmuşdu. Həmin ilin iyulun 14-də Əlibəyli kəndində ermənilərin təxribat qruplarının qurduğu partlayıcı qurğunun işə düşməsi nəticəsində 1998-ci il təvəllüdlü Aygün Şahmalıyeva şəhid olmuşdu. Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki əhalini, dinc insanları hədəf alması beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır. Azərbaycanlı mülki əhalinin hədəf alınması düşmənin iç üzünü bir daha açıq-aşkar göstərir. Düşmən qəhrəman Azərbaycan əsgəri ilə üz-üzə gəlməkdən qorxur, ona görə də mülki şəxsləri hədəf alır. Ancaq əfsuslar olsun ki, beynəlxalq qurumlar atəşə məruz qalmış Azərbaycanın mülki vətəndaşlarının durumunu görməzdən gəlirlər. Bunun əksinə, Ermənistanın yalanlarına aldanaraq, erməni hərbçilərinin ölülərini ”mülki şəxs” kimi təqdim edir, düşmənin lehinə təbliğat aparırlar.

**Millət vəkili Vüqar Bayramov xatırladıb ki, Ermənistanın raket və bombaları Vətən müharibəsində yüz mülki vətəndaşımızın həyatını itirməsinə və 416 nəfərin yaralanmasına səbəb olmuşdu:** ”Ermənistanın raketlərlə Bərdə şəhərini vurması nəticəsində 1 gündə 21 vətəndaşımız həyatını itirmişdi. Əfsuslar olsun ki, o zaman bu hadisələri əksər aparıcı xarici media qurumları işıqlandırmadı. İndi bəzi ölkələrin rəsmilləri belə feyk bəyanatlar verməkdə sanki yarışa çıxıblar. Savaş zamanı mülki vətəndaşların təhlükəsizliyinin qorunması Azərbaycan üçün hər zaman proritet olub. Təəssüf ki, hələ də bir sıra beynəlxalq qurumlar və ölkələr Ermənistanın feyk xəbərlərinə istinad edərək Azərbaycanı ittiham etməkdə davam edirlər. İkinci Qarabağ müharibəsi zamanı nəinki təmas xəttində, hətta döyüş bölgələrindən uzaqda yerləşən Gəncə, Bərdə kimi şəhərlərimizi raket atəşinə tutan Ermənistanı bir dəfə də olsun ittiham etməyənlər indi döyüşdə məhv edilən erməni hərbiçilərini ”günahsız mülki sakinlər” kimi təqdim etməkdən belə çəkinmirlər. Azərbaycanın işi haqq işidir. Münaqişənin həlli isə əsassız ittihamlarla deyil, ölkələrin bir-birilərinin ərazi bütövlüyünün tanınmasını nəzərdə tutan sülh müqaviləsi ilə mümkündür”.

**İsmayıl Qocayev**

## “İran rəsmi İrəvanın mövqeyini gücləndirir"

### Sədrəddin Soltan: ”Yaxşı olar ki, rəsmi Tehran rəsmi İrəvana basqılar, sanksiyalar tətbiq etsin”



**”İran hakimiyyəti və onun bir sıra rəsmiləri qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış edirlər”.**

*Bu barədə ”Şərq”ə danışan politoloq Sədrəddin Soltan bildirib. Ekspertin sözlərinə görə, bu yaxınlarda İran parlamentarilərindən biri Bəhreynin İran ərazisi olduğunu, hətta onu işğal etmək kimi cəfəng fikirlər söylədilər:* ”İran rəsmi nümayəndələrinin Ermənistanın başlatdığı genişmiqyaslı təxribatla bağlı dedikləri də bu qəbildən mənasızdır. Azərbaycanın heç bir dövlətə qarşı ərazi iddiası yoxdur. Həmçinin sərhədlərin dəyişdirilməsi tərəfdarı da deyil. Dövlətimizlə Ermənistan arasında isə indiki şəraitdə sərhədlər konkret müəyyənləşmir. Müxtəlif bəhanələrlə düşmən tərəf prosesləri ləngidir. Qonşu, yaxud region ölkəsi kimi İran tərəfi isə indiyə qədər Ermənistana sözügedən istiqamətdə ciddi addım atması üçün heç bir təzyiq göstərməyib.

Yaxşı olar ki, rəsmi Tehran rəsmi İrəvana basqılar, sanksiyalar tətbiq etsin. Azərbaycan isə öz təhlükəsizliyini, suverenliyini qorumaq uğrunda Ermənistan tərəfin təxribatlarının qarşısını alır. İrana ərazisi bütöv, demokratik dəyərləri tərəqqi edən, daim inkişafda olan Azərbaycan sərf etmir.

Çünki cənub qonşumuz yaxınlığında zəif və ondan asılı ola biləcək dövlətlər istəyir. Rəsmi Tehran və Ermənistan arasında hərbi, iqtisadi və digər sahələrdə əməkdaşlıq mövcuddur. İran tərəfi analoji bəyanatlar verməklə rəsmi İrəvanın mövqeyini gücləndirir, düşmənin törətdiyi genişmiqyaslı provokasiyalara ”don geyindirməyə” çalışır, onu müdafiə edir.

Hər kəsə gün kimi aydındır ki, sərhədlər dəqiqləşdirilməyənə qədər ərazilərimizə hücum edilməsindən danışmaq əhəmiyyətsizdir. Ermənistan, İran və başqa maraqlı dövlətlər sözügedən məsələnin həll olunmasını istəyirsə, ilk növbədə, rəsmi İrəvanın delimitasiya və demarkasiya proseslərinin reallaşdırılmasına əngəl törətməsinin qarşısını almalıdır”.

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Bakının xilaskarları...

## Nuru Paşa və Qafqaz İslam Ordusuna həmişə minnətdar olmalıyıq

**Dövlətçilik tariximizin ən şanlı, şərəfli günlərindən birinə - Bakımızın erməni-daşnak - rus-bolşevik tör-töküntülərindən xilasının 104-cü ildönümünü şəhidlərimizin mübarək qanı ilə qarşılayırıq. Və həmişə olduğu kimi, yenə də, Vətən sağ olsun, deyirik. Bu, dünya durduqca dilimizin əzbəridir. Heç vaxt dəyişməyəcək Ana andımızdır. Bəli, bayraqları bayraq yapan üstündəki qandır, Torpaq uğrunda ölən varsa, Vətəndir! Azərbaycanımızı Vətən edən, başımızı ucaldan, vüqarla "millətimin imzası var, imzalar içində" söyləməyimizə, qürurlanmağımıza səbəb olan şəhidlərimiz, qəhrəman oğullarımız önündə təzim edirik. Bu qəhrəmanlardır ötən əsrdən bəri Vətən uğrunda, Azərbaycanın bütövlüyü, dövlətçiliyi uğrunda canını sipər edən.**

1918-də də belə idi. 1990-larda da belə oldu, indi də belədir. Vətən savaşı bitməz, şəhidlik məktəbi qapanmaz. Bu, türk-müsəlman topluluğunun şərəfli alın yazısıdır. Xoşbəxt millətik ki, Allah bizlərə məhz bu qisməti ehsan edib. Başımız uca, alnımız açıqdır. Azərbaycanımızın dövlətçilik tarixinin mühüm səhifələrindən biri - Bakının qurtuluşu günü Qafqaz-İslam Ordusunu bir daha minnətdarlıqla anırıq.

1918-ci il martın 30-da Bakıda başlanan kütləvi qırğınlar 12 mindən artıq günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşağın öldürülməsi ilə nəticələnmişdi. Tarixi faktlar o gün paytaxtın türk-müsəlman əhalisinə tutulan divanın dünyanın ən vəhşi vandalizmləri ilə müqayisə oluna biləcəyini sübuta yetirir. O dəhşətli günlərin şahidi olmuş Kulner familiyalı bir alman 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdı: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, orqanları doğranmışdı..." Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan sığınmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır. Quduzlaşmış ermənilər müdafiəsiz insanları, xüsusən qadınları daha ağır işgəncələrlə öldürürdülər. Bu soyqırımı həyata keçirən qaniçənlər təkcə insanları qətlə yetirməklə kifayətlənmirdilər. Onlar şəhərin ən görkəmli məscidi sayılan Təzəpir məscidini aramsız top atəşinə tutub dəlik-deşik etmiş, Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binasını yandırmış, Şirvanşahlar Sarayını güllə yağmurundan tanınmaz hala salmış, "Açıq söz", "Kaspi", "Baku" qəzetləri redaksiyalarını dağıtmışdılar. Faciənin miqyası yalnız Bakı şəhəri ilə məhdudlaşmamışdı. Həmin günlərdə Zəngəzur, Qarabağ, Şamaxı, Quba, Xaçmaz, Göyçay, Hacıqabul, Salyan, Lənkəran, Muğan bölgəsində də kütləvi qırğınlar törədilmiş, yerli əhaliyə divan tutulmuşdu. Bölgələrdə qətlə yetirilən insanların sayı 50 mindən artıq idi. Aprel ayında Quba qəzasına göndərilən daşnak dəstələrinin komandiri Hamazasp bildirmişdi: "Mən erməni xalqının qəhrəmanı və onun müdafiəçisiyəm... Mənə Xəzər dənizindən Şahdağadək olan ərazidə bütün müsəlmanları məhv etmək əmri verilmişdir". 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən, qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq, son nəfərinədək məhv edilmişdi. Cəlladlar ölkənin türk soylu müsəlman əhalisinə olan nifrətini həm də dini ziyarətgahları darmadağın etməklə göstərirdilər. Şamaxıda Cümə məscidi də daxil olmaqla əksər mədəniyyət abidələri yandırılmış və uçurulmuşdu. O dövrdə göydələn minarələri olan İrəvan məscidləri şəhərin əsas siluetini səciyyələndirən qurğulardan idi. İrəvan qalasında ən qədim məscid 1510-cu ildə Şah İsmayılın əmri ilə inşa olunmuşdu. 1918-ci ildə ermənilər həmin məscidə müsəlmanları dolduraraq, od vurub yandırdılar. Məscid insanlarla birgə tamamilə yanıb külə döndü. 1604-cü ildə I Şah Abbas İrəvan qalasında Sərdar sarayının şərq tərəfində möhtəşəm bir məscid inşa etdirmişdi. 1606-cı ildə inşa edilən bu məscidin memarı o vaxtın məşhur sənətkarı Şeyx Bahəddin idi. Gəncə məscidi ilə ümumi oxşarlığı olan İrəvan məscid kompleksinə mədrəsə, kitabxana, mehmanxana və müxtəlif təyinatlı tikililər daxil idi. 1918-ci ilə qədər məscid və ətrafındakı binalar kompleksi yarıuçuq da olsa, qalırdı. Məlum hadisələr zamanı onlar da tamamilə məhv edildi. Belə bir zamanda Bakıya köməyə çağırılan Osmanlı Türkiyəsi Avropa dövlətlərinin etiraz etməsinə baxmayaraq, qardaş ölkəyə köməyini əsirgəmədi. 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirən Türk ordusu Bakının azad olunması üçün həyata keçirdiyi hərbi əməliyyatlarda 1200-dən çox şəhid vermişdi. 1918-ci il sentyabrın 15-də Osmanlı ordusunun generalı, qəhrəman türk oğlu Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etdi. Bu qələbə ilə 4 ay əvvəl elan edilmiş Azərbaycan Xalq Cümhuriyyətinə, ölkəmizin müstəqilliyinə yaranacaq ciddi təhlükə aradan qalxdı, həm də Bakı və ətraf rayonlarda erməni-bolşevik ağalığına son qoyuldu. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü. Qəhrəman türk əsgərlərinin qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski Bakının azad edilməsi münasibətilə Nuru Paşaya yazırdı: "Cəsur türk əsgərlərinin Azərbaycanın başkəndi olan Bakını düşməndən təmizləməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".

Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. Sovet əsarəti illərində bu hadisənin əhəmiyyəti məqsədli şəkildə unutdurulmağa çalışılsa da, xalq türk əsgərinin qəhrəmanlığını könlündə yaşatdı, onu heç bir zaman unutmadı. Daim sayğıyla andı, şəhid məzarlarını gül-çiçəyə bürüdü. Bu gün qəhrəman osmanlı əsgəri ilə Azərbaycan əsgəri eyni məzarlıqda - Şəhidlər Xiyabanında yanaşı uyuyur. Və türk qardaşlığının sarsılmazlığını bütün dünyaya göstərir.

"15 sentyabr 1918-ci il Bakı şəhərinin erməni-bolşevik və ingilis işğalından xilas edildiyi böyük gündür". Bu sözləri isə Türkiyə prezidentinin baş müşaviri Yalçın Topçu dünən səsləndirib. "104 il əvvəl Anadolu torpaqlarında qardaş Azərbaycanın yardımına gələn və Türkiyədən sonra ən çox türk şəhidlərinə sahiblik edən Azərbaycan torpaqlarında şəhid olmuş komandan Nuru Paşanı, Qafqaz İslam Ordusunun qurulması əmrini verən Hərb naziri Ənvər Paşanı böyük hörmətlə anırıq", - deyə Y.Topçu bildirib. Y.Topçu əlavə edib ki, Türkiyə dövləti və milləti hər zaman və hər şəraitdə qardaş ölkə Azərbaycanın və sülhün yanındadır.

**Günün önəmi mövzu ilə bağlı "Şərq"ə danışan araşdırmaçı-yazar Dilqəm Əhməd Cümhuriyyət dövrünün tədqiqatçısı olaraq əminliklə ifadə edib ki, əgər Qafqaz İslam Ordusu olmasaydı, Azərbaycan Cümhuriyyətinin tarixi Tiflis və Gəncə dönəmi ilə bitəcəkdi:** "Təsadüfi deyil ki, başda Məhəmməd Əmin Rəsulzadə olmaqla, Cümhuriyyət xadimləri 15 sentyabr hadisəsini 28 may - İstiqlal Günü qədər önəmli hesab ediblər və dövlətimizin faktiki mövcudluğunu 15 sentyabr - Zəfər gününə bağlayıblar. Bakı həmin vaxt bolşeviklərin və ermənilərin əsarəti altında idi. Bakı kommunasının rəhbəri Şaumyan və dəstəkçiləri mart ayında Bakıda, Qubada, Şamaxıda soyqırım törətmişdilər. Təsəvvür edin ki, müsəlman türk əhalisini qıranlar Bakıda hakimiyyətdə idi. Ona görə də Bakının azad edilməsi ancaq və ancaq türk ordusunun sayəsində mümkün ola bilərdi". Araşdırmaçı bildirib ki, türk ordusu Azərbaycan Cümhuriyyəti ilə Osmanlı xanədanlığı arasında bağlanmış müqavilə əsasında Bakıya gəldi: "Bakı əhalisi onları böyük təntənə ilə qarşıladı. Bu baxımdan Nuru Paşa və Qafqaz İslam Ordusunun zabit və əsgərlərinə həmişə minnətdar olmalıyıq. Gələcək nəsillər Bakının xilaskarlarını unutmamalı, tarixdən nəticə çıxarmalıdırlar.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Xankəndiyə gedən yol bağlanmalıdır

## Əgər Ermənistan sülhə hazır deyilsə biz də güzəştləri dayandırmalıyıq

**Ermənistan silahlı qüvvələrinin təxribatları davam etməkdədir. Düşmənin silahlı birləşmələri sentyabrın 14-ü gün boyu Azərbaycan Ordusunun Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində yerləşən mövqelərini minaatanlardan və artilleriya qurğularından atəşə tutublar.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri tədbirlər görülüb və qarşı tərəf susdurulub.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, bu ilin ortalarından etibarən Ermənistanla sülh müqaviləsinin bağlanması istiqamətində məhsuldar görüşlər keçirilirdi.** Avqust ayının son günündə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşlərdə dayanıqlı sülhün işartıları yarandı: "Paşinyan da münasibətlərin yaxşılaşdırılmasında maraqlı olduğunu göstərməyə çalışırdı. Ancaq Ermənistanın qəfil genişmiqyaslı hərbi hücumu bölgədə ciddi qarşıdurmaya səbəb oldu. Bu cəhd faktiki olaraq indiyə qədər əldə olunan razılaşmaları pozmaq deməkdir. Ermənistanın pozucu metodu ilə dəfələrlə rastlaşdığımız üçün buna hazır olmalıydıq. Sülh danışıqlarının pozulmasına hesablanmış gərginlik Minsk qrupunu yenidən diriltmək məqsədi daşıyır. Sentyabrın 13-də, səhər saatlarında atəşkəs əldə olunsa da, Ermənistan tərəfi artilleriya atışı ilə ərazilərimizə mərmi yağdırmaqdadır. Paşinyan əmindir ki, Ermənistanın içərilərinə doğru hərbi əməliyyat olmayacaq. Ancaq Azərbaycanı buna təhrik edərək bütün dünyanı bizə qarşı ayağa qaldırmağa cəhd edir. Fransa da fürsətdən istifadə edərək rəsmi Bakıya qarşı məkrli planını işə salıb. Prezident E.Makron BMT Təhlükəsizlik Şurasının iclasını çağırmaqla yanaşı, Avropa İttifaqından bizə qarşı sanksiya tətbiq edilməsini tələb edir. ABŞ rəsmiləri Ermənistanın bu saldırısını qınamaq əvəzinə tərəfləri güc tətbiq etməməyə çağırır ki, bu da ədalətli deyil".

**V.Əfəndiyev vurğulayıb ki, vəziyyət qeyri-stabil olaraq qalmaqdadır:** "İndiki şəraitdə yeganə çıxış yolu Xankəndinə gedən yolu bağlamaqdır. Əgər Ermənistan sülhə hazır deyilsə biz də güzəştləri dayandırmalıyıq. Zəngəzura çıxışımız təmin olunmayana qədər sərhəd qapanmalı və Qarabağa Ermənistanın girişi qadağan olunmalıdır. Rusiya ilə münasibətləri də Türkiyə ilə koordinasiya etməliyik".

**İsmayıl**

# İran şəhid dəfnlərindən də istifadə edir

## Tural İrfan: "Düşünüblər ki, öz məqsədimizi açıq, İran adı ilə, siyasi nöqtədən dilə gətirsək heç kəs dəstək verməyəcək"

**Azərbaycan-Ermənistan sərhədində erməni terrorçularının törətdiyi təxribatların qarşısını alarkən şəhid olan hərbi qulluqçularımız dünən dəfn olunub. Şəhidlərimizlə keçirilən vida mərasimi və dəfn prosesində bir qrup dindarların xüsusi aktivliyi, məzhəbçi dini şüarlar səsləndirməsi diqqət çəkib.**

Daha doğrusu, şəhidlərimizin dəfnlərində deyilən fars mərsiyələri, dini çağırışlar, Ya Hüseyn, ya Əli şüarlarının səsləndirilməsi, "şaxsey-vaxsey" ayinlərinin icra edilməsi cəmiyyətdə ciddi narazılıq doğurub. Bununla bağlı iradlarını sosial şəbəkədə paylaşan ictimaiyyət nümayəndələri hesab edir ki, şəhidlərin dəfni üçün Fəxri Xiyabana, Şəhidlər Xiyabanına toplaşan dindarlar təşkil olunmuş kütləyə bənzəyir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan ilahiyyatçı Tural İrfanın sözlərinə görə, şəhidlərimizin dəfni təbii ki, islam dininə uyğun aparılmalıdır və şəriət qaydalarının tələbinə müvafiq şəkildə axirətə yola salınmalıdır. Ancaq bəzən şəhidlərin dəfni zamanı əsl islamın yox, İranın islam adı ilə, şiəlik adı ilə qondarıb sırıdığı cəfəng davranışların şahidi oluruq:** "Məsələn, qəfil bir qrup adam peyda olur və başlayır İmamların, Əhli Beytin, İmam Hüseynin adını çəkərək şüarlar səsləndirməyə, guya mərsiyə oxumağa. Başqaları da ortada İmam adı səsləndiyinə görə, məcbur qalıb onların sinə döyməsinə qoşulmalı olurlar. Əvvəla qeyd edim ki, islam dini ölmüş insanın, ələlxüsus da şəhid olmuş şəxsin arxasından ağı deməyi, hay-həşir salmağı, mərsiyə, nohə deməyi, üz cırmağı yasaqlayır. Çünki şəhid olan insan cənnətə gedir. Cənnətə gedən şəxs üçün də təəssüflənmək Allaha üsyandır. Mərsiyə demək Peyğəmbərdən əvvəlki cahiliyyə əqrəblərinin adəti idi. Onlar ölən adamın yox olduğuna, torpağa qarışaraq itəcəyinə inanırdılar və ona görə də ölünün arxasınca belə işlər görürdülər. Amma islam dinində və tarixində bu kimi hallar yasaq hesab edilir və heç bir orijinal nümunəsi də yoxdur. Adətən bu kimi lazımsız işlərdən İran istifadə edir. O da insanları



*"Ona görə də İmam adının arxasında gizlənərək, ikitirəlik, nifaq salma metodu seçərək bu cür üsullardan istifadə edirlər"*

öz maraqları üçün bir yerə toplaya bilmədiyi üçün, siyasi ideologiyalarını məhz İmam Hüseynin adı ilə pərdələyib onun arxasından bu işləri çevirirlər. Guya İmamlara yas saxlamaq lazımdır, guya min illərlə ağlamaq lazımdır, özünə zülm etmək, baş yarmaq lazımdır və sair".

*T.İrfanın sözlərinə görə, son günlərdə İranın da cani-könüldən dəstəkləyib qardaş dediyi kafir Ermənistanın təxribatı nəticəsində şəhid olmuş hərbiçilərimizin dəfni zamanı da İranın ölkəmizə də sirayət etdirdiyi o cür əməllərin şahidi olduq. Bu adamlar sırf İrana bağlı adamlardır və əksəriyyəti də dini savadı olmayan kütlədir:* "İran Peyğəmbərin Əhli Beytini, imamları monopoliyaya almaq istəyir və elə təbliğat aparır ki, guya dünyada yeganə olaraq İmamların yolu ilə gedənlər bunlardır. Lakin bu, tamamilə əksinədir. İmam Əli sağ olsa idi Ermənistanın yanında olardımı? İmam Hüseyn sağ olsa idi soyqırıma məruz qalan Uyğur türklərini qoyub Çinin yanında olardımı? Peyğəmbər yaşasaydı Kəşmir müsəlmanlarının yox, Hindistanın yanında olardımı? Digər imamlar dursa idi Qarabağ məsələsində hansı mövqedə olardılar? Xocalıda dərisi soyulan körpələrin, donuz salınıb təhqir olunan məscidlərin tərəfində olardı, yoxsa kafir, daşnak ermənilərin? Şübhəsiz ki, haqlının, əzilənin, Azərbaycanın yanında olardılar. Çünki onların bütün mübarizəsi və şəhadət səbəbləri haqqa, ədalətə görə olub. Fəqət İran bu gün o müqəddəs insanları öz çirkin siyasətinə alət edib təhqir edir. Bütün insanlarda dinə nifrət yaradır. Bizim ölkəmizdə də təsirini artırmağa cəhd edir.

Odur ki, şəhid dəfnində İmamların adları ilə hay-küy salanların əsla dinə aidiyyəti yoxdur. Əgər belə bir dini ayin lazım olsa ölkəmizdə Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir, onlar belə bir şüarlar səsləndirmək üçün məscidlərə göstəriş verərdi. Ancaq görürük ki, o insanların heç birinin dini icmaya dəxli yoxdur və xaricdən təsirlənən, özləri də bilərəkdən, ya da bilməyərəkdən kimlərəsə alət olmuş dəstələrdir".

**İlahiyyatçının sözlərinə görə, bu şüarları şiəliyə məxsus hesab edərək (halbuki şiəlikdə də belə şeylər yoxdur) səsləndirməklə onlar həmin məclislərdə iştirak edən digər məzhəbdən olan vətəndaşlarda və inancsız insanlarda qıcıq yaratmaq məqsədi güdürlər ki, təxribat yaratsınlar:** "Düşünüblər ki, öz məqsədimizi açıq, İran adı ilə, siyasi nöqtədən dilə gətirsək heç kəs dəstək verməyəcək, onları qovacaqlar. Ona görə də din pərdəsi altında, İmam adının arxasında gizlənərək, ikitirəlik, nifaq salma metodu seçərək bu cür üsullardan istifadə edirlər. Hesab edirəm ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və təhlükəsizlik orqanları bu cür təxribatçı, insanlarda ikrah yaradan əməlləri törədənləri nəzarətə götürməli, məşğul olmalıdır. Şəhidlərə aid dini ayinlər, dəfnlə bağlı bütün lazımlı işlər dövlət tərəfindən görülür. Ona görə də orada bu cür dəstələrin din adı altında hansısa xurafat əməlləri icra etməsinə gərək yoxdur".

**Şəymən**

# KTMT Ermənistanın sözü ilə hərəkət edə bilməz

## Əgər təşkilat toqquşmalara qarışarsa Türkiyə də vəziyyətə müdaxilə edə bilər



**KTMT Azərbaycan-Ermənistan sərhədindəki vəziyyəti təhlil etmək üçün işçi qrup yaratmağı təklif edib. Bu təklif KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasının növbədənkənar iclasında səsləndirilib. Belarus Təhlükəsizlik Şurasının dövlət katibi Aleksandr Volfoviç ölkəsinin Ermənistanla Azərbaycan arasında məsələlərin alternativsiz, yalnız siyasi və diplomatik üsullarla sülh yolu ilə həllindən çıxış etdiyini diqqətə çatdırıb: "Mövcud vəziyyət hərtərəfli araşdırma tələb edir".**

İclasda operativ şəkildə atılması mümkün görünən addımlar təklif olunub. Onların arasında KTMT-nin baş katibi Stanislav Zasın dövlət başçılarına ətraflı məruzə hazırlamaq üçün münaqişə zonasına getməsi, vəziyyəti təhlil etmək üçün Katibliyin və KTMT Birgə Qərargahının əməkdaşlarından ibarət işçi qrupun yaradılması da var.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının adı cəlbedici olsa da, ciddi hərbi təşkilat kimi qəbul olunmur. Onun sözlərinə görə, KTMT-ni alyans da adlandırmaq doğru olmaz:** "Ona görə ki, alyans dedikdə ən azından bir neçə güclü dövlətin bərabərhüquqlu şəkildə bir yerdə birləşməsi nəzərdə tutulur. Amma bu anlayış ümumilikdə KTMT-yə şamil edilmir. Əslində üzvlər üçün qurumu önəmli edən məqam alyansın nizamnaməsinin 4-cü maddəsi, yəni üzvlərdən birinə hücum zamanı digər üzvlərin hamısının onun müdafiəsini təmin etməsidir. Lakin Krımın anneksiyası bu maddənin effektivliyi ilə bağlı müəyyən sualların yaranmasına gətirib çıxardı. 2014-cü ildə Krımın ilhaqından sonra yarımadanı KTMT üzvlərinin Rusiyanın ərazisi kimi tanımaması əslində tərəflərin şərti olaraq müttəfiq olduğu faktını bir daha təsdiqlədi. İkinci Qarabağ savaşı və ondan sonrakı dövrə nəzər yetirsək, keçmiş SSRİ ərazisində həm də yeni situasiyanın formalaşdığını görmüş olarıq. Hazırkı situasiyada Azərbaycan başqa bir ölkənin sərhədinə müdaxilə etməyib. Buna görə də başqa ölkələrin və ya təşkilatların hadisəyə birbaşa müdaxiləsi yolverilməzdir və heç bir əsası yoxdur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Azərbaycan və Ermənistan arasında baş verən hadisələrə qarışarsa, bu zaman Şuşa Bəyannaməsinə əsasən, Türkiyə də vəziyyətə müdaxilə edə bilər. Bu isə Rusiya üçün arzuedilən deyil".

**İsmayıl Qocayev**

# Yalan, saxta xəbərlər virus kimi yayılır

## Hacıbəy Heydərli: "Dövlət qurumları da sosial şəbəkələrin sürətinə çatmalı və orada yayılan xəbərlərə anında reaksiya verməlidir"

**"Həssas mövzularda informasiya ilə düzgün işləmək ən vacib amillərdəndir". Bu sözləri "Şərq"ə açıqlamasında "Azxeber.com"un baş redaktoru Hacıbəy Heydərli deyib. Baş redaktor bildirib ki, yalan informasiyalar, saxta xəbərlər, sosial şəbəkələrlə virus kimi yayılır və sonradan onun qarşısını almaq mümkün olmur:**

"Bu kimi halların olmaması üçün operativlik ən vacib şərtdir.

Ancaq bəzən də olur ki, hansısa məlumatı dəqiqləşdirmək vaxt alır və ya gec yayımlanmasının xüsusi səbəbləri olur. Belə olan halda cəmiyyət sosial şəbəkələrə üz tutur və oradakı informasiyaları qəbul edir, onlara inanmağa başlayır. Qeyd edim ki, Azərbaycan mediası 44 günlük Vətən müharibəsindən alnıaçıq, üzüağ çıxan mediadır. Həmin günlərdə sosial şəbəkələrdə yayımlanan, paylaşılan saxta xəbərlərin, dezinformasiyaların qarşısını məhz peşəkar jurnalistlər aldı. Cəmiyyətimiz də dolğun və düzgün informasiya mənbəyi kimi yalnız televiziyaları, agentlikləri və xəbər saytlarını gördü. Bu işdə ən vacib amil isə dövlət qurumları ilə medianın koordinasiyalı şəkildə fəaliyyəti idi. İstər Müdafiə Nazirliyi, istər Xarici İşlər Nazirliyi, istərsə də digər qurumlar çox operativ şəkildə xəbərləri mediaya verirdi. Bu məsələdə isə ən çox qazanan cəmiyyətimiz oldu".

**Jurnalist vurğulayıb ki, bu kimi halların qarşısını almaq üçün insanlarımız özləri üçün güvənilmiş xəbər mənbələrini müəyyənləşdirməlidir:** "İnsanlar hansı xəbər agentliyinə, saytına etimad göstərdiklərini bilməlidirlər. Dövlət qurumları da sosial şəbəkələrin sürətinə çatmalı və orada yayılan xəbərlərə anında reaksiya verməlidir. Media isə hər ikisi arasında körpü rolunu oynamalıdır. Yəni sosial mediada gördüyü xəbəri rəsmi qurumlarla dəqiqləşdirməli və sonra yayımlamalıdır. Bu məsələnin həlli yo-



lu yalnız cəmiyyətin maariflənməsi və feyk xəbər yayan, dezinformasiya paylaşan insanlara qarşı ictimai qınağın formalaşmasıdır. Elə adamlar var ki, yalnız reytinq, "like" xatirinə pafos dolu yalan xəbərlər yayır və sosial şəbəkələrdə özünü cəzasızlıq mühitində hiss edir. Mediada isə bunlar yolverilməzdir və qanunla tənzimlənir. Hər halda gecikən informasiyadan yalnız Azərbaycan mətbuatı itirir, qazanan isə sosial şəbəkələrdir".

**İsmayıl Qocayev**

**Senytabrın 12-dən 13-nə keçən gecə düşmənin törətdiyi genişmiqyaslı təxribata müzəffər Azərbaycan Ordusu adekvat cavab verib. Ermənistanın Azərbaycanla sərhəddə - Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu bütün hərbi təyinatlı obyektlər darmadağın edilib. Çünki onlar Azərbaycanın təhlükəsizliyinə təhdid yaradırdı. Bu obyektləri bərpa etmək üçün**



# "Ordumuz 40-a yaxın mövqeyi və 8 yüksəkliyi azad edib"

## Rey Kərimoğlu: "Əgər onlar təxribatlarını dayandırmasalar, Azərbaycan Ordusunun "Dəmir yumruğ"u onların başına enməyə davam edəcək"

**Ermənistana ən azı 4-5 il vaxt lazımdır. Həmin bölgədəki bütün nəqliyyat-kommunikasiya sistemi və mühüm yüksəkliklər ordumuz tərəfindən nəzarətə götürülüb.**

Bundan sonra Ermənistan nə indi, nə də gələcəkdə Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək. Eyni zamanda düşmənin xeyli sayda hərbi texnikası, milyarddan artıq dəyəri olan iki "S-300" raketi, 200 nəfərə yaxın canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarla postu məhv edilib. Ermənistanda yüzlərlə yaralı var. Rəsmi İrəvanın bütün parametrlərə görə itkiləri Azərbaycandan qat-qat çoxdur. Silahlı qüvvələrimiz Ermənistanın ölkəmizə və hərbi bölmələrimizə qarşı ardıcıl həyata keçirdiyi təxribatların hansı acı nəticələrə gətirib çıxaracağını bir daha göstərdi. Son zamanlar Ermənistan ciddi-cəhdlə revanşa, yeni hərbi əməliyyatlara, hücuma hazırlaşırdı.

Həm Qarabağda, həm də sərhəddə təxribatların sayı artmışdı. Azərbaycan Ordusu məhz onların ərazisində cəmi 7 saat davam edən unikal əməliyyat gerçəkləşdirməklə, bütün bu planları alt-üst etdi. Ermənistan başa düşməlidir ki, kiməsə, hansısa qüvvələrə arxalanıb Azərbaycanı fakt qarşısında qoya bilməz. Bunlara baxmayaraq Ermənistan silahlı qüvvələri atəşkəs barədə əldə olunmuş razılaşmanı yenə də pozaraq sentyabrın 13-dən 14-nə keçən gecə və dünən səhər saatlarında Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən bölmələrimizi müxtəlif çaplı minaatan və artilleriya qurğularından atəşə tutub. Müdafiə Nazirliyinin məlumatına əsasən hazırda mövqelərimiz fasilələrlə atəşə tutulur. Bölmələrimiz tərəfindən zəruri cavab tədbirləri görülür.

**Ermənilərin 40-a yaxın mövqeyini və 8 yüksəkliyi aldığımızı deyən tanınmış hərbi jurnalist, Qarabağ qazisi Rey Kərimoğlu "Şərq"ə bildirib ki, bütün bu hadisələr onlara dərs olmalıdır:** "Ermənistan həmişə regiona təsiri olan qüvvələrin əlində alət olub. Rəsmi İrəvan hazırda çaş-baş vəziyyətdədir. Bilmir Rusiyanın ayağından öpsün, yoxsa Avropanın. Ona görə də mürəkkəb vəziyyətdə qalıb.

Digər tərəfdən isə ortalıqda İran faktoru var. Ermənistan ordusunun sərhədimizdəki təxribatlarının arxasında xarici qüvvələrin "əli" var. Onlar erməniləri qızışdıraraq silah verirlər. Bu oyunlara gələn Ermənistan isə dövlətini uçuruma aparır.

Bizim amalımız öz sərhədlərimizi qorumaq və Ermənistan-Rusiya-Azərbaycan arasındakı üçtərəfli sülh müqaviləsinin müddəalarının yerinə yetirilməsidir. Güman edirəm ki, ordumuz əldə etdiyi mövqelərdə möhkəmlənəcək və "10 Noyabr" sazişinin vədlərinə əməl olunmasına nail olacaq.

Paşinyan bunu nə qədər tez etsə, onun üçün o qədər yaxşı olacaq. Əgər onlar təxribatlarını dayandırmasalar, Azərbaycan Ordusunun "Dəmir yumruğ"u onların başına enməyə davam edəcək".

**Nihat Müzəffər**



# "Bilik günü" təntənəli qeyd edilməyəcək

## Ümumi təhsil müəssisələrində ilk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunacaq

**Ümumtəhsil məktəblərinin rəhbər və pedaqoji heyətinə 15 sentyabr - "Bilik Günü"nün təntənəli şəkildə qeyd edilməməsi tapşırılıb. Bu barədə Elm və Təhsil Nazirliyindən bildirilib.**

Qeyd olunub ki, sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqsaylı təxribatın qarşısı alınarkən çoxsaylı hərbi qulluqçumuz şəhid olub:

"Şəhidlərimizin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımıza Allahdan şəfa diləyirik! Bununla əlaqədar olaraq, ümumtəhsil məktəblərinin rəhbər və pedaqoji heyətinə 15 sentyabr - "Bilik Günü"nün təntənəli şəkildə qeyd edilməməsi tapşırılıb. Valideynlərin isə bu məsələni anlayışla qarşılamaları xahiş olunur. Ümumi təhsil müəssisələrində ilk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunacaq".

# Yaxşı ki, avtomobilin üzərinə aşdı

## İnsan həyatına da son qoya bilərdi

**Paytaxtın Nəsimi rayonunda reklam lövhəsi küləyin təsiri ilə parkinq ərazisində olan avtomobillərin üzərinə aşıb. Nəqliyyat vasitələrinə ziyan dəyib. İddia edilir ki, reklam lövhəsi nazik bir dəmir parçasından asılı qaldığı üçün aşıb. Vaxtında tədbir görülmədiyi üçün belə bir hadisə baş verib. Avtomobil sahibləri çıxılmaz vəziyyətdə qalıb.**




***Küçələrə reklam lövhələri yerləşdirilərkən təhlükəsizlik qaydalarına əməl olunmur***

*Təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev isə "Şərq"ə açıqlamasında deyib ki, reklam lövhəsi yerləşdirilən zaman təhlükəsizlik qaydalarına ciddi əməl olunmalı, yerin səthi lövhələrin ölçüləri və materialı, ətrafdakı infrastruktur, piyada keçidi, dayanacaqlar nəzərə alınmalıdır:* "Diqqət etmək lazımdır ki, əlverişsiz hava şəraitinin təsirindən sıradan çıxma, aşma riski olmasın. Dayanıqlılığı möhkəm olmalıdır ki, insanların həyat və sağlamlığı üçün ciddi təhlükə riski yaratmasın. Hansı müəssisənin balansındadırsa, vaxtaşırı texniki qulluq edilməli, nasaz detallar varsa təmin olunmalıdır. Ümumiyyətlə isə "Reklam haqqında" qanunun 26.5-ci maddəsinə açıq məkanda yerləşdirilən reklam yol hərəkətinin təhlükəsizliyi tələblərinə cavab verməli, yol hərəkəti iştirakçıları üçün təhlükə yaratmamalı, sürücülərin yol şəraitini qiymətləndirməsinə mane olmamalı və çətinləşdirməməli, yol hərəkəti nişanlarına və yazılarına bənzəməməlidir. Yol örtüyünün üzərində, yol hərəkəti nişanlarında, onların dirəklərində və digər tənzimləmə vasitələrində, yol qurğularında reklamın yerləşdirilməsi qadağandır".

**Şəymən**

**Elan**

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən Adıgözəlov Rasim Salman oğlunun adına verilmiş U33847 nömrəli Qarabağ Müharibəsi Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hacıyev Asəf Seyfulla oğluna Bakı şəhəri, Xətai rayonu, Aşıq Ələsgər küçəsi 17 ünvanında yerləşən binanın D blok, mərtəbə 8, mənzil 222 ünvanına "Şərq-Qərb Mülk" MMC tərəfindən verilmiş 210805 nömrəli alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2629**

# Evliliyə bir şans...

## Fərhad Mehdiyev boşanmaların sayının azalmasını mediasiyanın fəaliyyəti ilə əlaqələndirib



**Bu ilin yanvar-iyul aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 35646 nikah və 8862 boşanma halı qeydə alınıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,2-dən 6,1-ə qədər artıb, boşanmaların sayı isə azalaraq 1,7-dən 1,5-ə düşüb.

Qeyd edək ki, ötən illərlə müqayisədə bu il boşanma faizinin aşağı düşməsi cəmiyyətdə maraq doğurub.

**Hüquqşünas, Mediasiya Şurasının üzvü, Fərhad Mehdiyev isə "Şərq"ə açıqlamasında boşanma sayının azalmasını mediasiyanın fəaliyyəti ilə əlaqələndirib:** " 2021-ci ilin iyul ayından tətbiqinə başlanan mediasiya prosesinin məqsədi, peşəkar danışıqlar aparma qabiliyyətinə sahib olan mediatorun vasitəsilə, aralarında hüquqi münaqişə olan tərəfləri bir masanın ətrafında əyləşdirməklə, onların arasındakı mübahisəni məhkəmədən kənar qaydada həll etməkdir. Mediator hər iki tərəflə ayrılıqda birgə danışıqlar aparır, tərəflərin maraqlarını öyrənir və onları uzlaşdırmağa çalışır. Qeyd olunan statistik göstəricilərdən hiss olunur ki, məhkəmədən əvvəl cütlüklərin mediasiyaya müraciət etməsi yavaş-yavaş öz effektini verir və mediatorların səyləri nəticəsində az da olsa tərəflərin barışmasına nail olunur. Onlar arasında bir müddət sonra təkrar boşanmaq üçün məhkəməyə müraciət edənlər də olur. Amma bir qismi psixoloqa müraciət edərək evliliklərinə bir şans vermək istəyirlər. Biz adətən boşanmaq istəyən cütlüklərə bir-birinə zaman verməyi tövsiyə edirik. Şəxsi təcrübəmə əsasən deyirəm ki, mediatorlar cütlüklərlə söhbət zamanı bir növ ailə psixoloqu rolu oynayır və onlara aralarındakı mübahisənin səbəblərini göstərərək münasibətlərini normallaşdırmaq üçün öz tövsiyələrini verir".

**Şəymən**

ŞƏRQ
15 sentyabr 2022-ci il № 165 (5687) (cümə axşamı)




# Acun Azərbaycan xalqına başsağlığı verdi

**Türkiyənin məşhur iş adamı və "TV8" telekanalının rəhbəri Acun Ilıcalı Ermənistanın Azərbaycana qarşı sərhəddə törətdiyi təxribatlarla bağlı paylaşım edib.**

"Bizim media" xəbər verir ki, Ilıcalı sosial şəbəkə hesabında Azərbaycanla Türkiyənin yan-yana olan bayraqlarının fotosunu yayımlayaraq, şəhidlərimizi anıb, ailələrinə isə başsağlığı ünvanlayıb.

"Azərbaycan ordusunun qəhrəman şəhidlərinə Allahdan rəhmət, qardaş Azərbaycan xalqına başsağlığı diləyirəm" - Acun paylaşımına şərh yazıb.

# Gecə bədbəxt hadisə baş verib

Azərbaycanda məşhur iş adamı binadan yıxılıb həlak oldu



**AAAF Park Yaşayış Kompleksinin əsas şəriklərindən biri, Holdinqin prezidenti Tofiq Heydərovun yaxın dostu və sinif yoldaşı, iş adamı Elçin Səfərov həlak olub.**

Bədbəxt hadisə dünən gecə baş verib. E. Səfərov Yeni Yasamal qəsəbəsində, yaşadığı mənzilin eyvanından yıxılıb. (Yenisabah.az)

Üçüncü mərtəbədən yıxılan iş adamının başı əvvəlcə kondisionerə, daha sonra yerə dəyib. Hadisə nəticəsində E. Səfərov həlak olub.

Bildirək ki, E. Səfərov uzun müddət "AAAF Park-Astara"nın direktoru vəzifəsində çalışıb.

# Məhərrəmlik ayı bazara mənfi təsir edib

## Azərbaycanda qızıl və zinət əşyaları bazarında satışlar 70 faiz azalıb



**Məhərrəmlik və səfər aylarında şənlik mərasimlərinin keçirilməməsi Azərbaycanda qızıl və zinət əşyaları bazarına mənfi təsir edib.**

**Bunu Trend-ə Azərbaycan Zərgərlər Assosiasiyasının sədri Toğrul Abbasquliyev deyib.**

**Onun sözlərinə görə, Azərbaycanda qızıl və zinət əşyaları bazarı şənlik mərasimlərinə bağlıdır.**

**"Məhərrəmlik və Səfər ayı ilə bağlı ölkədə toy şənliklərinin keçirilməməsi qızıl bazarında özünü göstərir. Hazırda qızıl və zinət əşyaları bazarında satışlar 70 faiz azalıb. Bu hal hər il təkrarlanır. Sentyabr ayının sonunda Səfər ayı bitir deyə həm istehsalçılar və idxalçılar qızıl və zinət ehtiyatlarını artırırlar. Ehtiyatların artırılmasının əsas səbəblərindən biri də yeni ilin yaxınlaşmasıdır. Novbəti aydan qızıl-zinət bazarında canlanma gözlənilir", - deyə T. Abbasquliyev bildirib.**

# 38 il əvvəlki cinayətin üstü açıldı



**Rusiya müstəntiqləri 38 il əvvəl uşağa edilən zorlama cinayətinin üstünü açıblar.**

**Milli.Az bildirir ki, bu barədə Rusiya İstintaq Komitəsinin Tümen vilayəti üzrə şöbəsindən məlumat verilib.**

**İstintaqın məlumatına görə, 1984-cü il oktyabrın 18-də Tümen küçələrinin birində pedofiliyada təqsirləndirilən rusiyalı bir qız görüb, onu zirzəmiyə sürükləyib və zorlayıb. Bundan sonra o, cinayət yerindən qaçaraq şəhəri tərk edib.**

**Faktla bağlı iş açılsa da, uzun müddət üstü açılmayıb. Eyni zamanda müstəntiqlər və polis cinayətkarın axtarışını davam etdirib. Sonradan məlum oldu ki, onun DNT profili əvvəllər Kalmıkiyada xüsusilə ağır cinayət törətdiyinə görə cəza çəkən adamın profilinə uyğun gəlir. Nəticədə pedofil olduğu iddia edilən şəxs Elistada saxlanılıb. Dindirilmə zamanı o, təqsirini etiraf edib və səbəblərdən danışıb. Ona qarşı ittiham irəli sürülüb və həbs edilib.**

**"Cinayət işi çərçivəsində müstəntiqlər zərərçəkmişi dindirib, təqsirləndirilən şəxsin şəxsiyyətini müəyyənləşdirib, təqsirləndirilən şəxsləri dindirib, zəruri ekspertizalar təyin edib və bir sıra zəruri ekspertizalar keçiriblər", - deyə şöbədən bildiriblər.**



# Sadə kostyum, eynək və qara çanta...

## Şimali Koreya liderinin yanındakı sirli qadın maraq doğurub







**Şimali Koreya lideri Kim Çen İnin son görüşlərində adətən sadə kostyum, eynək və qara çanta ilə görüntülənən qadın diqqət çəkir. 30-40 yaşlarında olduğu ehtimal edilən qadının kimliyi ilə bağlı hələlik heç bir məlumat yoxdur.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, şəxsiyyəti açıqlanmayan qadın keçən həftə böyük bir açıq hava konserti zamanı Şimali Koreya liderinin yanında olub. Eyni qadın Kimin heç vaxt nüvə silahından əl çəkməyəcəyinə and içdiyi Ali Xalq Məclisində çıxışı zamanı sənəd daşıyarkən də görünüb.

Şimali Koreyanın ciddi nəzarət altında olan dövlət mediası aylardır bəzən Kimin yanında, bəzən də arxa planda olan qadının foto və ya videolarını yayır, lakin onun adını heç vaxt açıqlamayıb.

ABŞ-da yerləşən "NK News" saytı xəbər verir ki, "Tez-tez Şimali Koreya liderinin telefon, siqaret və ya dərman kimi hər zaman ehtiyac duyduğu əşyaları olan əl çantasını gəzdirir".

Digər tərəfdən, qadının 30-40 yaşlarında olduğu və Kimin qohumlarından biri olduğu ehtimal edilir. Bildirilir ki, Şimali Koreya liderinin 1970-ci illərdə doğulmuş Kim Sol Sonq və Kim Çun Sonq adlı ən azı iki ögey bacısı var...

"NK News" bildirib ki, Kimin böyük bacısı Kim Sol-Sonq "partiya rəhbərliyində pərdə arxasında aktiv olub". Kim Çun Sonqla bağlı isə çox az məlumat var.

1948-ci ildə Kim İr Sen tərəfindən qurulan Kim sülaləsi üç nəsil boyu dəmir yumruqla hökmranlıq edib və nadir hallarda qadınları yüksək vəzifələrə təyin edib.

Bununla belə, Kim Çen İn bir neçə qadına həm rəsmi, həm də qeyri-rəsmi şəkildə hakimiyyətə gəlməyə icazə verib.

Bunlardan ən məşhuru onun 34 yaşlı bacısı Kim Yo-Yonqdur ki, o, böyük qardaşından sonra Şimali Koreya rejiminin yeganə ən mühüm fiquruna çevrilib və Kimin baş təbliğatçısı olub. O, Kimin həm ölkə daxilində, həm də xaricdə diqqətlə hazırlanmış ictimai imicinin arxasında duran adamdır.

Bundan əlavə, bu il Şimali Koreya lideri 57 yaşlı Ço Son Huini ölkənin ilk qadın xarici işlər naziri təyin edib.

**Turan**



# Rəsmən elan etdilər!

## "Yeni dünya qurulur"

**Mərkəzi Asiya ölkəsi Özbəkistanın şərqində yerləşən tarixi Səmərqənd şəhəri bu gün həssas toplantıya ev sahibliyi edəcək. Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinp koronavirus epidemiyası başlayandan bəri ilk xaricə səfərini edir.**

Çin və Rusiyanın rəhbərlik etdiyi Şanxay Əməkdaşlıq Təşkilatının iclası iki gün davam edəcək. 1996-cı ildə Qazaxıstan, Qırğızıstan və Tacikistan, eləcə də Moskva və Pekin tərəfindən Şanxay beşliyi adı ilə yaradılan təşkilat 2001-ci ildə Özbəkistanın da iştirakı ilə adını dəyişdirərək Şanxay Əməkdaşlıq Təşkilatına çevrilib. Yeddi üzvü ilə yanaşı, təşkilatın müşahidəçiləri və dialoq tərəfdaşları da var, Türkiyə onun dialoq tərəfdaşlarından biridir. Sammitdə Prezident Rəcəb Tayyib Ərdoğan da iştirak edir.

Kreml Ukrayna müharibəsində Çindən gözlədiyi iqtisadi yardımı ala bilməyən Rusiya lideri Vladimir Putinlə çinli həmkarı Si Cinpin arasında keçiriləcək görüşdə müzakirə olunacaq mövzuları açıqlayıb. Beynəlxalq və regional məsələlər də siyahıya daxildir, burada Ukrayna müharibəsi siyahının başındadır. Kreml bəyan edib ki, Putin və Si Cinpin görüşdüyü sammit Qərb dünyasına "alternativ"dir.

Kreml Cinpin və Putinin görüşünün "xüsusilə" vacib olduğunu vurğulayır. Hazırda Çin lideri tarixi üçüncü müddət axtarır və Ukraynaya hücum edən Putin Qərb dövlətləri ilə əlaqəni tamamilə itirib.

Bu il Pekində keçirilən Qış Olimpiya Oyunlarında görüşən Çin və Rusiya liderləri "məhdudiyyətsiz" ittifaqda olduqlarını açıqlayıblar. Lakin son yeddi aylıq müharibədə Putin Cinpindən gözlədiyi yardımı ala bilməyib. Çin mediası Ukraynanın işğalında Rusiyanı dəstəkləyir və hesabatlarında NATO-nu günahlandırır. Çin rəsmiləri də bəyanatlarında Rusiyanın tərəfini tutdular və Pekin administrasiyası Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında (BMT) səsvermədə bitərəf qaldı.

Lakin Çinin Moskvaya dəstəyi bununla məhdudlaşdı. Ukraynaya təcavüzünü qınamayan yeganə superdövlət olan Çin Rusiyanın dəfələrlə iqtisadi yardım tələblərinə müsbət cavab verməyib, ABŞ-ın başçılıq etdiyi Qərb ölkələrinin sanksiyalarından da çəkinib. Amerikanın **"Vashinqton Post"** qəzeti iyunun əvvəlində tarixi sanksiyalarla üzləşən Rusiyanın Çin lideri Cinpin israrlı tələblərinə görə qəzəbləndirdiyini yazıb.

Moskva isə Pekinə Ukrayna savaşında diplomatik dəstəyi müqabilində Tayvan gərginliyində Çinin yanında olub.

Bu gün Çin və Rusiya liderləri Səmərqənddən dünyaya yeni dövrün başladığını elan edəcəklər. Britaniyanın **"The Times"** qəzeti "Putin və Si yeni dünya düzəni cızır" başlıqlı xəbərində görüşün Rusiya ordusunun Ukraynada bataqlığa düşdüyü bir vaxtda baş tutduğunu vurğulayır. İki liderin ABŞ-ın gücünə meydan oxumağa hazırlaşdığını qeyd edən "The Times" bu məqamda Rusiyanın Çindən daha çox asılı olduğunu bildirir.

**Amerikanın "CNN İnternational"** telekanalının başlığı "Ukraynadakı məğlubiyyətdən sonra Putinin Sinin köməyinə hər zamankından daha çox ehtiyacı var" olub.

"Problemlər Çin və Rusiyanın "sərhədsiz" dostluğunu sınaqdan keçirir" qeyd edən **"New York Times"** qəzeti Putinin cəbhə xəttində itkiləri və Pekin rəhbərliyinin iqtisadi durğunluğunun münasibətləri daha da mürəkkəbləşdirə biləcəyini yazıb.

**"Wall Street Journal"** isə "Si və Putin Ukrayna müharibəsi başlayandan bəri ilk üz-üzə görüşlərində Qərbə qarşı çıxmağın yollarını axtarırlar" başlığı ilə təqdim edib.

Çin ordusu keçən həftə Rusiyanın ən şərq hissəsindəki Vladivostokda idi. Pekin sentyabrın əvvəlində Rusiyaya 3000 əsgər göndərdi. Bu addım Ukraynanın cənubunda və şərqində işğal etdiyi torpaqları itirən Rusiya lideri Vladimir Putinin gözlədiyi mənəvi dəstək olub.

**Turan**

# 4 yaşlı qız bir sutka valideynlərinin meyitlərinin yanında qaldı



**Moskva yaxınlığındakı Ramenskoyedəki mənzillərin birində kişi və qadının meyitləri tapılıb.**

Milli.Az bildirir ki, MK xəbər verir ki, yaşayış binasında dörd yaşlı qız uşağı da aşkar edilib, o, ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.

Nəşrin məlumatına görə, böyüklərin cəsədləri sentyabrın 13-ü axşam saatlarında tapılıb. Ölənlər 39 yaşlı qadın və onun 42 yaşlı əridir. Onların ölüm səbəbi müəyyən edilib, fövqəladə vəziyyətin cinayət xarakterli olması istisna edilmir.

Ölən qadının qızı olan uşaq ağır bədən xəsarətləri ilə yanaşı, ağır susuzluqla xəstəxanaya yerləşdirilib. Ola bilsin ki, o, ölü anası və atası ilə mənzildə bir gündən çox vaxt keçirib. İndi hadisənin bütün şəraiti hüquq-mühafizə orqanları tərəfindən araşdırılır.

# Coğrafiya İnstitutu tədqiqat aparıb

Xəzərdə xəstəlik törədən bakteriyalar normadan artıqdır



**Coğrafiya İnstitutunun Xəzərin hidrometeorologiyası şöbəsinin mütəxəssisi Ramin Atakişiyev Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin əməkdaşları ilə birgə Abşeron yarımadasının sahil zolağının bəzi sahələrində (Sumqayıt şəhərinin Corat qəsəbəsi, Bakının Kürdəxanı, Mərdəkan və Hövsan qəsəbələri) dron aparatının köməyi ilə tədqiqat işi aparıb.**

İnstitutdan verilən xəbərə görə, tədqiqatın məqsədi əvvəlcədən seçilmiş ərazilərdə kənar müdaxilələr nəticəsində Xəzər dənizinin sahilə yaxın sahələrində müxtəlif rəng çalarlarının yaranma səbəblərinin öyrənilməsi və qeyd olunan sahələrdə çirklənmə vəziyyətinin qiymətləndirilməsidir.

Monitorinq keçirilən ərazidə vizual müşahidələr zamanı dəniz səthinin sahildən təqribən 150 metr aralı məsafəyədək 3 rəng çalarlarında qəhvəyi, sarımtıl və mavi rənglərdə olması qeydə alınıb ki, bu da ilkin baxışda dənizin müxtəlif mənbələrdən çirklənməsi nəticəsinə gəlinir.

Müşahidələr aparılan zaman sahildən 10-50 metr aralığında olan qəhvəyi rəngin olması həmin ərazidə yosunların mövcudluğunu, sahildən 50-70 metr aralığında sarımtıl rəng həmin sahədə dərinliyin 20-30 sm aralığında dəyişməsi nəticəsində dənizin dibində qumsallığın görünməsini, mavi rəng isə açıq dənizdə suyun şəffaf olmasını deməyə əsas verir.(apa)

Sahil zolağından müəyyən məsafə aralıda götürülmüş dəniz suyu nümunəsi üzərində aparılmış kimyəvi və mikrobioloji təhlillərin nəticəsinə görə suyun çirklilik dərəcəsi, xəstəlik törədən bakteriyaların normadan artıq miqdarı da təyin edilib.